

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 10 (700) ■ 12 mart 2014 www.vergiler.az Qiyməti: 40 qəp.


# Bakıda müasir attraksion-panoram istifadəyə verilmişdir

*Martın 10-da Dənizkənarı Milli Parkın Dövlət Bayrağı Meydanına qədər uzanmış yeni bulvar hissəsində müasir attraksion-panoramın açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılışda iştirak etmişlər.*



Prezident İlham Əliyevin tapşırığı ilə Dənizkənarı Milli Parkın Dövlət Bayrağı Meydanına qədər uzadılması layihəsinin uğurla icra olunması Bakının simasını tamamilə dəyişmişdir. Şəhər sakinlərinin və eləcə də paytaxtımıza gələn qonaqların asudə vaxtlarının səmərəli təşkili üçün qısa vaxt ərzində burada ən müasir infrastruktur yaradılmış, dünya standartlarına cavab verən yeni-yeni müxtəlif xidmət və iaşə obyektləri tikilib istifadəyə verilmişdir. Bakı Bulvarı özünəməxsus gözəlliyi ilə turistlərin diqqətini cəlb edir. Ərazidə uşaqların və yeniyetmələrin əyləncəsini təşkil etmək üçün də yeni layihələrin icrasına başlanılmışdır.

Qeyd edək ki, müasir attraksion-panoramın tikinti-quraşdırma işlərinə Hollandiyanın Dutch Wheels (Daç Vilz) şirkəti ilə bağlanmış müqaviləyə əsasən, 2013-cü ilin sentyabrında başlanılmışdır. Tikinti-quraşdırma işləri yüksək keyfiyyətlə həyata keçirilmişdir.

Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya yeni qurğunun texniki göstəriciləri və xidməti imkanları barədə məlumat verilmişdir. Qeyd edilmişdir ki, diametri 60 metr olan yeni qurğuda hərəsində 8 nəfərlik yer olmaqla 30 kabinə vardır. Yeni attraksion-panoram yaxın günlərdə paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının istifadəsinə veriləcəkdir.

# Yol infrastrukturu genişləndirilir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də paytaxt Bakıda inşası davam etdirilən bir sıra yol qovşaqlarında və yol ötürücülərində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*



Son illər paytaxtda və regionlarda yol infrastrukturunun yaradılması ilə bağlı mühüm tədbirlər görülür. Çoxsaylı yol ötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunur, beynəlxalq standartlar səviyyəsində avtomobil yolları salınır. Bütün bu işlər «Azərbaycanda avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair 2006-2015-ci illər üzrə Dövlət Proqramı»na uyğun olaraq görülür. Bu çərçivədə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində yol-nəqliyyat kompleksinin ayrı-ayrı qurğuları yüksək keyfiyyətlə tikilərək istismara verilir.

Prezident İlham Əliyev əvvəlcə paytaxtın Ziya Bünyadov prospektinin Müzəffər Nərimanov küçəsi ilə kəsişməsində yol ötürücüsünün tikintisi ilə tanış olmuşdur. Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə Tədbirlər Planına uyğun olaraq, Ziya Bünyadov prospektinin yenidən qurulması layihəsinə görə 10 kilometrə yaxın uzunluğu olan 10 cərgəli avtomobil yolu ən müasir tələblər səviyyəsində salınır. Layihəyə əsasən burada müxtəlif səviyyəli 5 yol qovşağı, 4 yerüstü və 2 yeraltı piyada keçidi də inşa olunur. Ziya Bünyadov prospektinin Müzəffər Nərimanov küçəsi ilə kəsişməsində birinci yol qovşağı tuneldən və tunel üzərində nəqliyyat vasitələrinin dairəvi hərəkətini və geriyə dönmələrini təmin edən yollardan ibarətdir. Tunelin ümumi uzunluğu 780, qapalı hissəsinin uzunluğu isə 300 metrdir. Altızolaqlı yolun eni 27 metrə yaxındır. Tunel nəqliyyat vasitələrinin Ziya Bünyadov prospekti boyunca Böyükşor və 20 Yanvar dairələri istiqamətində maneəsiz, intensiv hərəkətini təmin edəcəkdir. Tunelin üstündə inşa olunmuş avtomobil yolları isə nəqliyyat vasitələrinin dairəvi, geriyə dönmə, Müzəffər Nərimanov küçəsi ilə Heydər Əliyev prospekti istiqamətinə və əksinə hərəkətini təmin edəcəkdir. Yenidən qurulmuş Müzəffər Nərimanov küçəsi üzrə dördzolaqlı yolun ümumi uzunluğu 1740, eni 19 metrdir.

Sonra Prezident İlham Əliyev Ziya Bünyadov prospektinin Əhməd Rəcəbli küçəsi ilə kəsişməsində inşa olunan müxtəlif səviyyəli yol qovşağının yerləşdiyi əraziyə gəlmişdir. Burada görülən işlər barədə dö dövlətimizin başçısına məlumat verilmişdir. Bildirilmişdir ki, yol qovşağının girişlərlə birlikdə uzunluğu 600 metrdir. 328 metr uzunluğunda olan körpü iki istiqamətdə altızolaqlıdır. Körpünün yaxınlığında piyadaların hərəkətini asanlaşdırmaq məqsədilə yerüstü keçid də inşa olunmuşdur.

Qeyd edilmişdir ki, şəhərin bu istiqamətində mövcud yol ensiz olduğu üçün hərəkətin intensivliyinə əngəl törədir və tıxaclara səbəb olurdu. Yeni yol və yol boyu inşa edilən körpülər hazır olduqdan sonra bu istiqamətdə avtomobillərin rahat və maneəsiz hərəkətini təmin edəcək, paytaxtın müxtəlif mikrorayonları, xüsusilə də Binəqədi rayonu istiqamətində nəqliyyatın intensiv hərəkətinə şərait yaradacaqdır.

Daha sonra Prezident İlham Əliyev Ziya Bünyadov prospekti ilə Əbdülvahab Salamzadə, Alı Mustafayev və Hüseynbala Əliyev küçələrinin kəsişməsində - «Xutor» dairəsində inşa olunan müxtəlif səviyyəli yol qovşağında tikinti işlərinin gedişi ilə tanış olmuşdur. Yol qovşağının texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat verilmişdir. Qovşaqda üç tunel, bir körpü, iki yeraltı piyada keçidinin inşa olunduğu qeyd edilmişdir. Bildirilmişdir ki, buradakı körpünün uzunluğu 630 metr olacaqdır. Layihəyə əsasən, qovşaqda yan və tunelüstü yollar inşa edilir. Bu qovşağın istifadəyə verilməsi ilə Ziya Bünyadov prospektindən hərəkət edən avtomobillər 20 Yanvar dairəsi və Qələbə meydanı istiqamətinə maneəsiz hərəkət edə biləcəklər. Bundan başqa, qovşaq 20 Yanvar dairəsi və Qələbə meydanından gələn nəqliyyat vasitələrinin əks istiqamətə - Ziya Bünyadov prospektinə çıxışını təmin edəcəkdir. Qovşaqdakı körpüdən isə avtomobillər Əbdülvahab Salamzadə küçəsindən Rəşid Məmmədov küçəsinə və əks istiqamətə rahat hərəkət edə biləcəkdir.

İnşası davam etdirilən yol qovşaqlarının və yol ötürücülərinin hamısında bütün kommunikasiya sistemləri, o cümlədən su, istilik, qaz, rabitə və yağıntı sularını axıdan xətlər dəyişdirilmiş, yeni drenaj sistemi yaradılmışdır. Yeni nəhəng yol qurğusunun istifadəyə verilməsi nəqliyyat sıxlığının aradan qaldırılması istiqamətində paytaxtda aparılan mühüm işlərin davamlı xarakter aldığını bir daha təsdiqləyir. Belə layihələrin uğurla icra olunması bir daha sübut edir ki, ölkədə aparılan sosialyönümlü tədbirlərdə başlıca məqsəd əhalinin rahatlığını təmin etməkdir.

İnşaat işlərinin gedişi ilə yaxından tanış olan dövlətimizin başçısı müvafiq göstərişlərini vermişdir.

## 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə cansağlığı və səadət arzulayıram.

Siz əsrlər boyu formalaşmış əxlaqi sərvətlərimizin, mədəni-mənəvi dəyərlərimizin layiqincə qorunub saxlanmasını təmin etmiş, tariximizə öz uzaqgörənliyiniz, fədakarlıq və qəhrəmanlıqlarınızla parlaq səhifələr yazmısınız. Ən dərin fikirləri dolğun ifadə qüdrətinə malik dilimizin ötən dövrlərin sınağından çıxaraq bu gün də yaşaması və zənginləşməsində misilsiz xidmətləriniz vardır. Gözəl ana kimi gənclərimizin vətənə və torpağa bağlılıq, müstəqil dövlətçiliyimizə, istiqlal ideallarına və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda formalaşmaları üçün bütün qüvvənizi sərf edirsiniz. Siz həm də maarifpərvər qadın ziyalılarımızın yolunu ləyaqətlə davam etdirərək, mədəniyyət, elm, təhsil, səhiyyə və digər istiqamətlərdə istedad və bacarığınızı getdikcə daha böyük əzmlə gerçəkləşdirirsiniz.

Cəmiyyətimizin həyatına dinamizm qazandıran sosial fəallığınız və onun ahəngdarlığını təmin edən yüksək ictimai mövqeyiniz zəngin mənəviyyatınızın, dərin zəkanızın, təşkilatçılıq qabiliyyəti və işgüzarlığınızın nəticəsidir. Azərbaycanın gələcək inkişafına uyğun, mühüm əhəmiyyətli layihələrin daimi iştirakçıları olaraq müstəqil dövlətçiliyimizin əsaslarının möhkəmləndirilməsinə yönəlmiş fəaliyyətlərinizlə siz göstərilən etimadı həmişə doğrultmusunuz. İctimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni sahələrdə apardığınız səmərəli işlərin bəhrələri yurdumuzun hər bir guşəsində özünü aydın şəkildə büruzə verir. Ölkənin hazırkı simasının müəyyənləşməsində özünəməxsus yer tutan və əhatə dairəsi mütəmadi genişlənən müvəffəqiyyətləriniz müasir Azərbaycan reallığının diqqətəlayiq hadisələridir.

Ümidvaram ki, siz xanımlar xalqımıza xas milli mənəvi dəyərləri bundan sonra da yaşadacaq və tükənməz intellektual potensialınızla gündən-günə yeniləşən respublikamızın çiçəklənməsi naminə töhfələrinizi əsirgəməyəcəksiniz.

Ən xoş arzularla,

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 7 mart 2014-cü il.

## Türkiyə və Azərbaycan arasında hərbi sahədə əməkdaşlıq yüksək səviyyədə inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Türkiyə Respublikasının Quru Qoşunları Komandanı Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı bildirmişdir ki, Türkiyə Respublikasının Quru Qoşunları Komandanı Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri iki ölkə arasında münasibətlərin bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə yüksək səviyyədə olduğunu bir daha təsdiq edir. Hərbi sahədə əməkdaşlığımızı ikitərəfli münasibətlərimizin inkişafının tərkib hissəsi kimi dəyərləndirən Prezident İlham Əliyev son illər bu istiqamətdə də mühüm nailiyyətlərin əldə olunduğunu demişdir. Dövlətimizin başçısı əməkdaşlığımızın bu sahədə daha da genişləndirilməsi üçün qarşılıqlı təcrübə mübadiləsinin, birgə təlimlərin keçirilməsinin və birgə istehsal sahələrinin yaradılmasının önəmini qeyd etmişdir.

Türkiyə Respublikasının Quru Qoşunları Komandanı Hulusi Akar ilk dəfə ölkəmizə 1994-cü ildə səfər etdiyini və xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşünü böyük ehtiramla xatırlamışdır. Ötən dövr ərzində Bakıda çox böyük dəyişikliklərin şahidi olduğunu vurğulayan Hulusi Akar ölkəmizdə gedən sürətli inkişaf proseslərinin onda yüksək təəssürat yaratdığını demişdir.


2 Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi «Makroiqtisadi icmal» hazırlamışdır

3 Sahibkarlara qeydiyyat sahəsində yeni elektron xidmətlər göstəriləcək

4 31 mart hesabatlar üçün sonuncu gündür

5 Sahibkarlığın inkişafı naminə...

# «Ekspert Missiyası» işə başlamışdır



*Mart ayının 11-də Vergilər Nazirliyində Avropa Komissiyasının Texniki Yardım və İnformasiya Mübadiləsi (TAIEX) proqramı çərçivəsində «Azərbaycan Respublikası Vergilər Nazirliyində Fəaliyyətin Qiymətləndirilməsi Sisteminin Təkmilləşdirilməsi üzrə Ekspert Missiyası» fəaliyyətə başlamışdır.*

Missiyaya daxil olan avropalı ekspertlər dörd gün ərzində Vergilər Nazirliyində fəaliyyətin qiymətləndirilməsi sahəsində mövcud vəziyyətin təhlili və təkmilləşdirmələr barədə təkliflərin hazırlanması ilə məşğul olacaqdır.

Ekspert missiyası ilə görüşdə çıxış edən vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov qonaqları salamlayaraq son dövrlərdə ölkəmizin vergi sistemində aparılan islahatlar və bu sahədə əldə olunan uğurlar barədə məlumat vermişdir. Nazir müavini Vergilər Nazirliyi ilə Avropa İttifaqı (Aİ) arasında səmərəli əməkdaşlığın nəticələrindən söz açmış, Aİ-nin dəstəyi ilə bundan əvvəl texniki yardım proqramı çərçivəsində Niderland Krallığının Vergi və Gömrük Administrasiyası ilə birlikdə reallaşdırılan «Kompüter əsaslı audit sistemi sahəsində Vergilər Nazirliyinə dəstəyin göstərilməsi» Tvinninq layihəsinin Azərbaycan və Avropa İttifaqı arasında mövcud olan uğurlu əməkdaşlığın real nəticələrindən biri olduğunu qeyd etmişdir. Bildirilmişdir ki, bu layihə çərçivəsində bir sıra yeni qanunvericilik sənədləri hazırlanmış, metodoloji və insan resursları bazası yaradılmış, ölkənin vergi auditi sahəsindəki mövcud inzibatçılığın ən yüksək beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində tədbirlər görülmüşdür.

Aİ ekspertlərinin Avropa ölkələrinin qabaqcıl təcrübəsi əsasında Vergilər Nazirliyində fəaliyyətin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi sahəsində mövcud vəziyyətin müqayisəli təhlilini aparacaqlarını nəzərə çatdıran nazir müavini bunun vergi sistemində qiymətləndirmə işinin inkişafına mühüm töhfələr verəcəyinə əmin olduğunu bildirmişdir.

Avstriya Federal Maliyyə Nazirliyinin Vergi və Gömrük Administrasiyasının Menecment Departamentinin rəis müavini Eva Mariya missiyanın Bakıya səfəri çərçivəsində Azərbaycanın bu sahədə təcrübəsi ilə tanış olacaqlarını, eləcə də Avstriya Federal Maliyyə Nazirliyinin fəaliyyətin idarə olunması sistemi üzrə təcrübəsinə dair geniş fikir mübadiləsi aparılacağını qeyd etmişdir.

Görüşdə Avstriya Federal Maliyyə Nazirliyinin nümayəndə heyəti öz ölkələrində mövcud olan fəaliyyətin idarə olunması sistemi, onun əsas elemetləri, idarəetmə yanaşması barədə ətraflı məlumat vermişdir.

# BVF təmsilçiləri ilə görüş



*Mart ayının 11-də Vergilər Nazirliyində Beynəlxalq Valyuta Fondunun (BVF) Azərbaycan üzrə missiya rəhbəri Raca Almarzoginin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş olmuşdur.*

Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov qonaqları salamlayaraq son dövrlərdə ölkəmizin vergi sistemində aparılan islahatlar və bu sahədə əldə olunan uğurlar, BVF ilə yaradılmış işgüzar əlaqələr barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, Azərbaycanda dayanıqlı, çevik, şəffaf və sabit vergi sisteminin qurulması, vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi, müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqi vergi daxilolmalarının artmasına zəmin yaratmışdır.

Cənab Raca Almarzogi Azərbaycanda vergi inzibatçılığının təkmilləşdirilməsi, bu sahədə görülən tədbirlərin gəlirlərə təsirini, eləcə də elektron xidmətlərin tətbiqi, vergitutma bazasının genişləndirilməsi, qeyri-neft sektorundan vergi daxilolmalarının artırılması istiqamətində Vergilər Nazirliyinin həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirmişdir.

Görüşdə 2013-cü ildə vergi daxilolmalarının vəziyyəti, 2014-2015-ci illər üçün vergi daxilolmaları üzrə proqnozlar, nağdsız əməliyyatların stimullaşdırılması, texniki yardım ehtiyacları və s. barədə fikir mübadiləsi aparılmışdır.

# Bələdiyyələr üçün seminar

*Bakı Şəhər Vergilər Departamentində (BŞVD) paytaxtda yerləşən bələdiyyələrin təmsilçiləri üçün «Yerli vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq subyektlərinin uçota alınması ilə bağlı Metodiki Vəsait» və «Yerli vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu ilə bağlı Metodiki Vəsait»in tətbiqi mövzusunda seminar-məşğələ keçirilmişdir. Tədbirdə 40 bələdiyyənin 72 nümayəndəsi iştirak etmişdir.*

Seminar iştirakçılarının nəzərinə çatdırılmışdır ki, vergilər nazirinin 27 dekabr 2013-cü il tarixli əmri ilə təsdiq edilmiş metodiki vəsaitlər BŞVD-nin əhatə dairəsində olan 52 bələdiyyənin hər birinin elektron qutularına göndərilmişdir. Yanvar-fevral aylarında Xəzər, Sabunçu, Suraxanı rayonlarının ərazilərində yerləşən 20 bələdiyyədə bələdiyyə üzvləri və bələdiyyə vergi orqanları əməkdaşları üçün seminar-məşğələlər təşkil edilmişdir.

BŞVD-nin Vergi ödəyicilərinin uçotu idarəsinin şöbə rəisi Məhəmməd Məmmədli «Yerli vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq subyektlərinin uçota alınması ilə bağlı Metodiki Vəsait»in tətbiqi mövzusunda təqdimatla çıxış etmişdir. Yerli vergilərin ödəyiciləri olan fiziki şəxslərin bələdiyyədə vergi uçotuna dair ərizələrin qəbulu və qeydiyyatı işinin təşkili, əmlakın uçota alınması, fiziki şəxsin elektron qaydada uçota alınması, uçotdan çıxarılması və yenidən uçota alınması, uçot məlumatlarının dəyişdirilməsi, yerli vergi ödəyiciləri olan sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması məsələləri interaktiv şəkildə izah edilmişdir.

Vergi ödəyicilərinə xidmət idarəsinin Məlumatlandırma və vergi təbliğatı şöbəsinin əməkdaşı Samir Salayevin təqdimatı isə «Yerli vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu ilə bağlı Metodiki Vəsait»in tətbiqinə həsr olunmuşdur. Təqdimatçı fiziki şəxsin torpaq, eləcə də əmlak vergisi və dərəcələri, güzəşt və azadolmalar barədə, mədən vergisinin hesablanması, bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi, yerli vergi və ödənişlər üzrə daxilolmaların uçotu və digər məsələlər haqqında ətraflı məlumat vermişdir.

Təqdimatlardan sonra BŞVD-nin Vergi ödəyicilərinə xidmət idarəsinin Məlumatlandırma və vergi təbliğatı şöbəsinin rəisi Məhərrəm Əmiraslanov bələdiyyə nümayəndələrini maraqlandıran suallara aydınlıq gətirmişdir.

Seminar-məşğələnin yekunları və praktiki nəticələri ilə bağlı bələdiyyə nümayəndələrinin fikirləri müsbət olmuşdur.

Sahil bələdiyyəsinin vergi şöbəsinin rəisi İnqilab Nəcəfov: «Bələdiyyə vergilərinin yığılması çox çətin prosesdir. Bu seminar-məşğələdə bizə lazım olan bəzi məsələlər aydınlaşdırıldı. Biz də bu tədbirdə öyrəndiklərimizi vergi şöbəsinin işçilərinə çatdırmağa çalışacağıq».

Nərimanov rayon bələdiyyəsinin sədr müavini Adil Ağayev: «Vergi ödənişi sahəsində vergi orqanı əməkdaşlarının təcrübəsi bələdiyyə vergi işçilərinə nisbətən daha böyükdür. Vergi işçiləri neçə illərdir bu sahədə təcrübə qazanıblar və işlərin mexanizmini bilirlər. Bələdiyyələrdə isə bu işlər təzə başlayır. Bu baxımdan belə tədbirlərin əhəmiyyəti böyükdür. Bizim bu cür görüşlərdən öyrənəcəyimiz çox şey var və olacaq».

Keşlə bələdiyyəsinin büdcə komissiyasının sədri, bələdiyyə üzvü İradə Həsənova: «Belə tədbirlərin nəticələrinin bizim üçün çox böyük əhəmiyyəti var. Çünki büdcəmizin zənginləşməsində yerli vergilər böyük rol oynayır».

**AYTƏN**

# Ümumi daxili məhsul

*Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi 2013-cü ilin göstəricilərini əhatə edən «Makroiqtisadi icmal» hazırlamışdır. Azərbaycanda baş verən iqtisadi tendensiyaları dünyadakı proseslərlə əlaqəli şəkildə əks etdirən həmin sənədin oxucularımızda maraq doğuracağını nəzərə alaraq, ayrı-ayrı hissələrini təqdim edirik.*

Azərbaycan Respublikasında uğurla həyata keçirilən iqtisadi siyasət nəticəsində, əvvəlki illərdə olduğu kimi, 2013-cü ildə də ölkə iqtisadiyyatında artım dinamikası davam etmişdir. Buna müvafiq olaraq əhalinin rifah halı daha da yaxşılaşmış, milli iqtisadiyyatın beynəlxalq reytinqləri yüksəlmiş, strateji valyuta ehtiyatları artmış və əhalinin 1 nəfərinə düşən ÜDM məbləğində artım müşahidə olunmuşdur.

Statistik məlumatlara əsasən, 2013-cü il ərzində ölkədə 57 milyard 708,2 milyon manat ümumi daxili məhsul istehsal olunmuş (2012-ci ildəkindən 5,8% çox), adambaşına düşən ÜDM 6.207,3 manat (7.912,5 ABŞ dolları) təşkil etməklə 2012-ci illə müqayisədə 4,4% artmışdır.




2013-cü ildə iqtisadi artım qeyri-neft sektorunun yüksək artımı sayəsində əldə edilmişdir. Artım neft sektoru üzrə 1% olduğu halda, qeyri-neft sektorunda 10% olmuşdur. Bununla yanaşı, qeyri-neft sektorunun xüsusi çəkisi əvvəlki ilə nisbətən əhəmiyyətli surətdə artmışdır. Əgər 2012-ci ildə bu göstərici 53,5% təşkil edirdisə, 2013-cü ildə 3,1% bəndi artaraq 56,6%-dək yüksəlmişdir. Son 5 ildə bu göstərici 1,5 dəfə artmışdır.

2008-ci ildə qeyri-neft sektorunun ümumi ÜDM-dəki xüsusi çəkisi 37,9% olmuşdursa, 2013-cü ildə bu göstərici 56,6%-ə yüksəlmişdir. Bu ondan irəli gəlmişdir ki, ölkənin neft sektorundan əldə olunan gəlirlərin Dövlət Neft Fondunda mərkəzləşərək düzgün idarə olunması nəticəsində neft gəlirləri qeyri-neft sektoruna yönəldilmiş və bu sahədə yüksək iqtisadi artıma nail olunmuşdur. 2003-2013-cü illərdə Dövlət Neft Fondundan dövlət büdcəsinə 46 milyard 435 milyon manat vəsait transfer edilmişdir. Bu vəsait dövlət büdcəsindən qeyri-neft sektoruna investisiya qoyuluşu şəklində yönəldilməklə son 10 il ərzində qeyri-neft sektoru üzrə ÜDM-in 6,2 dəfə artmasına gətirib çıxarmışdır. Ölkədə neft və qaz hasilatının həcmini, həmçinin Dövlət Neft Fondundan dövlət büdcəsinə transferləri illər üzrə müqayisə etsək, belə bir nəticəyə gəlmək olar ki, son 10 il ərzində iqtisadiyyatın qeyri-neft sektoruna qoyulan investisiyalar öz real nəticələrini son bir neçə ildə göstərmiş və özünü qeyri-neft sektorunun əhəmiyyətli artımı ilə ifadə etmişdir. Eyni zamanda, neft sektorundan əldə olunan vəsait maliyyə aktivləri formasında ölkənin makroiqtisadi təhlükəsizliyinin qorunması istiqamətində valyuta ehtiyatlarının artırılmasına yönəldilmişdir. Azərbaycanın valyuta ehtiyatları 50 milyard dollardan yuxarı məbləğdədir və valyuta ehtiyatlarının ÜDM-ə nisbətinə görə respublikamız dünyada ilk 15 ölkə sırasındadır.

2013-cü ildə ÜDM-in iqtisadiyyatın sahələri üzrə təhlili göstərir ki, ÜDM-in 46,3%-i sənayedə, 11,8%-i tikintidə, 7,1%-i ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə xidmətlər sahəsində, 5,3%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda, 4,8%-i nəqliyyat və anbar təsərrüfatında, 1,8%-i turistlərin yerləşdirilməsi və ictimai iaşə xidmətləri sahəsində, 14,7%-i sosial və fərdi xidmət sahələrində, 1,8%-i informasiya və rabitədə qeydə alınmış, istehsal olunmuş, məhsula və idxala görə ödənilmiş xalis vergilərin payı isə 6,4% təşkil etmişdir.

Qrafikdən ÜDM-in strukturuna nəzər yetirsək görə bilərik ki, ÜDM-in əsas hissəsi sənaye istehsalının payına düşür. Burada yüksək xüsusi çəki neft sənayesinə aiddir. ÜDM proporsional surətdə digər sahələr arasında da bölünmüşdür. Ümumiyyətlə, son iki ilin göstəricilərinə baxsaq, ÜDM-in bir sıra sahələrində artım müşahidə olunduğunu görərik. Bu artım xidmətlərin istehsalında özünü daha çox göstərmişdir. Bununla yanaşı, tikinti, elektrik enerjisi, qaz və buxar istehsalı, su təchizatı, kənd təsərrüfatı məhsullarının emalı, meşə təsərrüfatı və balıqçılıqda da artım müşahidə olunmuşdur. 2013-cü ildə neft hasilatının azalması ilə əlaqədar ÜDM-in azalması mədənçıxarma sənayesində müşahidə edilmişdir.

### Dövlət büdcəsi

2013-cü ildə dövlət büdcəsinə 19 milyard 494,4 milyon manat vəsait daxil olmuş, büdcədən müxtəlif sosial və iqtisadi tədbirlərin maliyyələşdirilməsinə 19 milyard 112,6 milyon manat xərclənmişdir. Büdcə gəlirləri əvvəlki illə müqayisədə 12,8% və ya 2 milyard 212,9 milyon manat, xərcləri 9,7% (1 milyard 696,2 milyon manat) artmış, büdcənin profisiti ÜDM-in 0,7%-i səviyyəsində olmuşdur. 2013-cü ilin dövlət büdcəsi 101,8% icra olunmuş, proqnoz tapşırığı 335,4 milyon manat artıqlaması ilə yerinə yetirilmişdir.

Büdcə vəsaitlərinin 6 milyard 934,2 milyon manatı (36,3%) sənaye və tikinti sahəsinə investisiya qoyuluşuna, 4 milyard 78,3 milyon manatı (21,3%) isə təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, həmçinin mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi üzrə xərclərin maliyyələşdirilməsinə yönəldilmişdir. 2013-cü ilin dövlət büdcəsinin 691 milyon manat kəsirlə yerinə yetiriləcəyi proqnozlaşdırılsa da, büdcənin gəlir hissəsinin artıqlaması ilə icra olunması və xərc hissəsinin tam icra edilməməsi səbəbindən, hesabat dövründə 381,8 milyon manat profisit yaranmışdır.

# Qanvermə aksiyası



Mart ayının 11-də Vergilər Nazirliyində talasemiyalı xəstələrə yardım məqsədi ilə qanvermə aksiyası keçirilmişdir. Talassemiyadan əziyyət çəkən uşaqlara kömək məqsədilə keçirilən aksiyaya nazirliyin aparatında start verilmişdir. İlk qanvermə aksiyasında nazirliyin struktur bölmələrinin 230 nəfərdən çox əməkdaşı iştirak etmişdir. Aksiya Vergilər Nazirliyinin yerli strukturlarında mart ayının 18-dək davam etdiriləcəkdir.

Ənənəyə çevrilmiş qanvermə aksiyalarında vergi orqanlarının əməkdaşları artıq 8 ildir ki, fəal iştirak edirlər.

# Sahibkarlara qeydiyyat sahəsində yeni elektron xidmətlər göstəriləcək



*Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin Dövlət qeydiyyatı və uçotun təşkili idarəsinin rəisi İlkin Həsənov qəzetimizə müsahibəsində son dövrlər qeydiyyat sisteminin təkmilləşdirilməsi ilə bağlı qanunvericiliyə edilmiş dəyişikliklər barədə ətraflı məlumat vermişdir.*

***- Vergilər Nazirliyinin son illər fiziki və hüquqi şəxslərin dövlət qeydiyyatının təkmilləşdirilməsi sahəsində həyata keçirdiyi tədbirlər barədə nə deyə bilərsiniz?***

- Müasir texnologiyaların və mütərəqqi beynəlxalq təcrübənin tətbiqi nəticəsində son illər vergi inzibatçılığı sahəsində əhəmiyyətli irəliləyişlə yanaşı, bunun beynəlxalq səviyyədə Azərbaycanın müsbət imicinin formalaşmasına da böyük təsiri olmuşdur. Ötən illərdə vergi inzibatçılığının bütün sahələrində olduğu kimi, qeydiyyat sahəsində də genişmiqyaslı islahatlar həyata keçirilməklə parlaq nəticələr əldə edilmişdir. Xatırlatmaq istərdim ki, ölkə başçının müvafiq fərmanına əsasən, Azərbaycanda sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı 2008-ci ildən bəri Vergilər Nazirliyi tərəfindən «bir pəncərə» prinsipi əsasında həyata keçirilir. Həmin dövrdən 2014-cü ilin mart ayının 1-dək vergi orqanları tərəfindən 355 mindən artıq sahibkarlıq subyekti, o cümlədən 33 mindən artıq kommersiya hüquqi şəxsi və 321mindən artıq fiziki şəxs «bir pəncərə» prinsipi əsasında qeydiyyata alınmışdır.

«Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» 23 may 2011-ci il tarixli fərmanın icrası istiqamətində Vergilər Nazirliyinin 2011-2012-ci illərdə həyata keçirdiyi tədbirlər nəticəsində sahibkarlıq subyektlərinin elektron qeydiyyatı sisteminin tətbiqinə başlanılması Azərbaycanda biznes mühitinin daha da yaxşılaşmasına şərait yaratmışdır.

***- Elektron qeydiyyat sisteminin tətbiqinin üstünlükləri və praktik nəticələri nədən ibarətdir?***

- «E-qeydiyyat» sisteminin tətbiqi 2011-2012-ci illərdə mərhələlərlə həyata keçirilmişdir. Birinci mərhələdə 2011-ci il iyulun 1-dən fərdi sahibkarlar üçün «e-qeydiyyat» sisteminin tətbiqinə başlanılmış, bununla əlaqədar normativ-hüquqi aktlarda hər hansı dəyişikliklərin edilməsinə zərurət olmamışdır. Keçən iki il yarımdan artıq vaxt ərzində Azərbaycanda 82500 fərdi sahibkarın qeydiyyatı bu üsulla aparılmışdır. Başqa sözlə, həmin dövrdən yeni fəaliyyətə başlayan fiziki şəxslərin yarıdan çoxu məhz elektron qaydada qeydiyyatdan keçməyə üstünlük vermişdir.

İkinci mərhələdə Vergilər Nazirliyi tərəfindən kommersiya hüquqi şəxslərin e-qeydiyyatının aparılması ilə bağlı Azərbaycan Respublikasının bir sıra qanunvericilik aktlarında dəyişikliklər barədə layihələr hazırlanıb hökumətə təqdim edildi. 2011-ci ilin sonlarında 4 qanunvericilik aktına - Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə, «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» və «Dövlət rüsumu haqqında» qanunlara əlavə və dəyişikliklər edildi və 2012-ci ilin yanvar ayında həmin qanunların tətbiqi ilə bağlı fərmanlar imzalandı.

Bu qanunların qüvvəyə minməsi yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlər üçün qeydiyyatdan əvvəlki prosedurlara olan bir sıra tələbləri tamamilə aradan qaldırmış, onlara elektron imzadan istifadə etməklə - qeydiyyat orqanına baş çəkmədən sənədlərin təqdim edilməsi imkanını yaratmışdır. Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin dövlət qeydiyyatının elektron üsulla aparılması prosesinə 2012-ci il fevralın 6-dan start verilmişdir.

***- «Asan imza»nın tətbiqi qeydiyyat sahəsində hansı yeniliklərə səbəb olmuşdur?***

- Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzinin 2013-cü ildə fəaliyyətə başlaması və «Asan imza»nın təqdim edilməsi elektron qeydiyyat sahəsində təklif olunan xidmətlərin çeşidinin və keyfiyyətinin müasir tələblərə uyğunlaşdırılmasında mühüm rol oynamışdır. 2012-ci ildən ölkədə 4236 kommersiya hüquqi şəxsin qeydiyyatı elektron üsulla aparılmışdır. Yeni yaradılan kommersiya hüquqi şəxslərin 54%-ə qədəri qeydiyyatdan elektron qaydada keçmişdir. 2013-cü ildə qeydiyyata alınmış kommersiya hüquqi şəxslərin sayı 2012-ci illə müqayisədə 2563 vahid və ya 52,2% artmışdır. Bu ilin yanvar-fevral aylarında 1696 kommersiya hüquqi şəxsi qeydiyyata alınmışdır və bu da ötən ilin müvafiq dövrünə nisbətən 22,8% çoxdur.

Bir faktı da xüsusi vurğulamaq istərdik ki, 2012-ci ilin sonlarında Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən keçirilmiş respublika müsabiqəsində «Ən yaxşı elektron dövlət xidməti» nominasiyasında Vergilər Nazirliyinin «Kommersiya hüquqi şəxslərin e-qeydiyyatı» layihəsi qalib gəlmişdir. Həyata keçirilmiş islahatar ölkəmizin beynəlxalq reytinq cədvəllərində biznesə başlama və qeydiyyat üzrə mövqeyinin möhkəmlənməsinə müsbət təsirini göstərmişdir. Azərbaycan 2013-ci ilin oktyabr ayında Beynəlxalq Maliyyə Korporasiyasının Dünya Bankı Qrupu tərəfindən açıqlanmış «Doing Business 2014» reytinq hesabatının «Biznesə başlama» indikatoru üzrə 189 ölkə arasında 10-cu yerdə qərarlaşmışdır. Hesabatda xüsusi vurğulanmışdır ki, kommersiya hüquqi şəxsin qeydiyyatı üçün yerinə yetirilməli olan prosedurların sayı 3, sərf edilən müddət 7 gün, sərf edilən məbləğ isə 34 manatdır.

«Doing Business 2014» hesabatına əsasən, Azərbaycan iqtisadiyyatı 2005-ci ildən biznes mühitinin yaxşılaşdırılması sahəsində 18 məqsədyönlü tənzimləyici islahat həyata keçirmiş və qanunvericiliyi təkmilləşdirərək dünya üzrə ilk 15 ölkə sırasına daxil olmuşdur. Respublikamız «Doing Business 2014» hesabatında 2012-2013-cü illərdə 3 islahat («biznesə başlama», «tikinti üçün icazələrin alınması» və «beynəlxalq ticarət» sahələrində) həyata keçirən 29 islahatçı ölkə sırasına daxil edilmişdir.

2013-cü ildə açıqlanmış analoji hesabata nisbətən Vergilər Nazirliyinə aid «Biznesə başlama» indikatoru üzrə Azərbaycan 6 pillə, «Vergilərin ödənilməsi» indikatoru üzrə 2 pillə irəliləmiş, 189 ölkə arasında müvafiq olaraq 10-cu və 77-ci yerlərdə qərarlaşmışdır. Biznesin elektron qeydiyyatının tətbiqinin genişləndirilməsi nəticəsində «Biznesə başlama» göstəricisi üzrə Azərbaycan ilk dəfə olaraq dünya ölkələrinin ilk onluğuna daxil edilmiş, Sinqapur, Yeni Zelandiya, Honq-Konqla yanaşı, ən yaxşı təcrübəyə malik ölkə kimi vurğulanmışdır.

## *Yaxın gələcəkdə biznes mühitinə daha bir xidmətin - yeni yaradılan kommersiya hüquqi şəxs üçün seçilmiş adın qeydiyyat orqanında bron edilməsi üzrə e-xidmətin istifadəyə verilməsi nəzərdə tutulmuşdur*

Yaxın gələcəkdə biznes mühitinə daha bir xidmətin - yeni yaradılan kommersiya hüquqi şəxs üçün seçilmiş adın qeydiyyat orqanında bron edilməsi üzrə e-xidmətin istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Bu yeni xidmət qeydiyyat aparılanadək kommersiya hüquqi şəxs üçün seçilmiş adın qeydiyyat orqanı tərəfindən qorunmasını təmin edəcəkdir.

Mütərəqqi qeydiyyat üsullarının tətbiqi sahibkarlar arasında həmişə rəğbətlə qarşılanır və bu sahədə istifadəyə verilən hər bir yeni xidmət növü tezliklə sahibkarlar üçün etibarlı xidmətə çevrilir. Son illərdə Vergilər Nazirliyi tərəfindən bu sahədə görülmüş işlər təkcə qeydiyyat prosedurlarının təkmilləşdirilməsi məsələlərini deyil, həmçinin biznes mühitinin sağlamlaşdırılması, təsisçilərin və kreditorların hüquqlarının müdafiəsi sahəsini də əhatə etmişdir.

***- Ölkə qanunvericiliyinə qeydiyyat və uçotla bağlı son dəyişikliklərin mahiyyəti barədə nə deyə bilərsiniz?***

- Beynəlxalq Maliyyə Korporasiyasının «Azərbaycanda kommersiya fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin təsisçilərin qərarı ilə könüllü ləğv edilməsi və bu sahədə beynəlxalq təcrübə»yə dair tövsiyələri nəzərə alınmaqla Vergilər Nazirliyi tərəfindən beynəlxalq təcrübə daha ətraflı öyrənilmişdir. Kommersiya hüquqi şəxslərin könüllü ləğv edilməsi prosedurlarının təkmilləşdirilməsi məqsədilə müvafiq normativ-hüquqi aktlarda - Mülki Məcəllədə, İnzibati Xətalar Məcəlləsində və «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunda dəyişikliklər edilməsi barədə təkliflər hazırlanaraq hökumətə təqdim edilmişdir.

Həmin layihələr əsasında Azərbaycan Respublikasının Mülki və İnzibati Xətalar məcəllələrinə və «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanuna dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının qanunları 2013-cü il 22 noyabr tarixdə Milli Məclisdə qəbul edilmişdir.

Həmin dəyişikliklərlə əlaqədar yaxın günlərdə sahibkarlara daha bir xidmət - ləğvetmə qaydası və müddətləri barədə məlumatın mətbuatda yerləşdirilməsinin, həmin məlumatın qəzetdə dərc edilməsi barədə məlumatlandırmanın elektron qaydada aparılması üzrə e-xidmət təklif ediləcəkdir.

Qanunvericilikdə edilmiş dəyişikliklərə uyğun olaraq, Vergilər Nazirliyinin 2014-cü il 11 fevral tarixli əmri ilə «Dövlət vergi orqanlarında kommersiya qurumlarının dövlət qeydiyyatının və vergi ödəyicilərinin uçotunun ləğv edilməsi Qaydaları» yeni redaksiyada təsdiq olunmuşdur. Bu qaydaların tədris edilməsi məqsədilə 2014-cü il fevralın 21-də nazirliyin qeydiyyat orqanının işçiləri üçün «Hüquqi şəxslərin dövlət qeydiyyatının və vergi ödəyicilərinin uçotunun ləğv edilməsi məsələləri» mövzusunda təlim keçirilmişdir. Qanunvericilikdəki dəyişikliklərlə əlaqədar müvafiq texniki tapşırıq hazırlanıb aidiyyəti üzrə təqdim olunmuşdur.

Hazırda vergi ödəyiciləri qeydiyyat ilə bağlı ərizələrini elektron şəkildə təqdim edə bilirlər. Bank idarələri ilə vergi orqanları arasında elektron sənəd mübadiləsinin təşkili sahibkarların marağına xidmət etməklə hesabların açılması prosedurunun əhəmiyyətli dərəcədə sadələşməsinə və vergi ödəyicilərinin vaxta qənaət etmələrinə şərait yaratmışdır. Bu səbəbdən də banklar və digər kredit təşkilatları ilə vergi orqanları arasında elektron sənəd mübadiləsinin aparılmasına dair sazişə qoşulan bankların sayı ilbəil artır. Artıq respublikada fəaliyyət göstərən 41 kommersiya bankı bu sazişə qoşulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 fevral tarixli fərmanına müvafiq olaraq «ASAN ödəniş» sisteminin yaradılması ilə əlaqədar zəruri tədbirlər görülür. Bütün bunlar islahatların bundan sonra daha da sürətlə aparılmasına və respublikamızda biznes mühitinin daha da yaxşılaşdırılmasına əminlik yaradır.

**Samir MUSTAFAYEV**

# Qanunu pozanlar cəzalandırılır

2014-cü ilin fevral ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 4862 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmişdir. 2491 vergi ödəyicisi tərəfindən nağd hesablaşmaların aparılması qaydalarının pozulduğu, 763 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz olaraq alınıb-satıldığı və ya dəyişdirildiyi, 599 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edimişdir.

Operativ nəzarət tədbirləri zamanı 594 vergi ödəyicisi tərəfindən 785 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 198 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 56 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış 795 ədəd mal olduğu aşkarlanmışdır. Aşkar edilmiş faktlarla bağlı müvafiq tədbirlər görülmüşdür.



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

Rakurs

# Vergi məsuliyyəti və onun mahiyyəti

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən, vergi ödəyiciləri, vergi agentləri və onların nümayəndələri, habelə vergi orqanlarının vəzifəli şəxsləri vergi qanunvericiliyinin pozulmasına görə bu Məcəllə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi və Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Vergi məsuliyyəti vergi qanunvericiliyinin pozulması hallarından, hüquqi pozuntunun xarakterindən və dərəcəsindən asılı olaraq günahkar şəxslərə qarşı tətbiq olunan sanksiya, cərimə, cəza xarakterli tədbirlərin məcmusundan ibarətdir.

Vergi hüquq pozuntularına görə məsuliyyət tədbirləri Vergi Məcəlləsində nəzərdə tutulan hallarda pozuntuya yol vermiş vergi ödəyicisinə qarşı maliyyə sanksiyaları, faizlər tətbiq olunur. Vergi hüquq pozuntusu inzibati xəta xarakterli olduqda qanunvericiliyin pozulmasına görə ödəyicilərə İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan cərimələr, vergi qanunvericiliyinin pozulması hallarında cinayət tərkibi olduqda isə günahkar şəxslərə qarşı Cinayət Məcəlləsi ilə müəyyən olunmuş cərimə və cəza tədbirləri tətbiq edilir.

Ümumiyyətlə, hüquqi nəzəriyyədə mahiyyətinə və tənzimlənmə metodlarına görə vergi məsuliyyəti maliyyə-hüquq məsuliyyətinin tərkib hissəsi sayılır və ona xas olan aşağıdakı əlamətlərə malikdir:

- maliyyə-hüquq normaları ilə müəyyən edilir və dövlət tərəfindən tətbiq olunan məsuliyyət tədbirlərinin konkret formasıdır;
- yalnız günahkar şəxsin qanunazidd əməlləri nəticəsində yaranan və vergi hüquq pozuntusu əlamətləri olan hallara görə tətbiq edilir;
- vergi qanunvericiliyinin pozulması hallarına görə məsuliyyət subyektləri olan hüquqi və fiziki şəxslərə qarşı tətbiq edilir;
- vergi hüquq pozuntusuna yol vermiş şəxsə münasibətdə tətbiq olunmaqla onun əmlak maraqlarına mənfi təsirlə nəticələnir;
- vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət tədbirlərinin görülməsi prosessual formada həyata keçirilir.

Qeyd olunanlarla yanaşı, vergitutma sahəsində dövlətin həyata keçirdiyi tədbirlərin və vergi münasibətlərinin hüquqi tənzimlənməsi mexanizminin spesifikasından asılı olaraq, vergi məsuliyyətinin özünəməxsus xüsusiyyətləri vardır. Vergi məsuliyyətinin maliyyə-hüquq məsuliyyətinin müstəqil bir forması olması həm də vergi qanunvericiliyində onu tənzimləyən xüsusi normaların müəyyən olunmasından irəli gəlir.

*Vergi məsuliyyəti vergi qanunvericiliyinin pozulması hallarından, hüquqi pozuntunun xarakterindən və dərəcəsindən asılı olaraq günahkar şəxslərə qarşı tətbiq olunan sanksiya, cərimə, cəza xarakterli tədbirlərin məcmusundan ibarətdir*

Ümumiyyətlə, vergi nəzəriyyəsində vergi məsuliyyətini tənzimləyən hüquq normaları sosial normaların bir növü sayılmaqla onun tətbiqinin iki forması müəyyən edilmişdir: pozitiv (könüllü) və neqativ (məcburi). Vergi məsuliyyətinin pozitiv formada tətbiqi vergi qanunvericiliyinin pozulması halının baş verməsi nəticəsində deyil, vergi ödəyiciləri tərəfindən məsuliyyət hissi başa düşülərək öz vəzifələrinin könüllü qaydada yerinə yetirilməsi ilə baş verir. Vergi hüququ subyektlərinin öz əməllərinə görə cavabdeh olmaları onların qanunvericiliklə müəyyən edilmiş vəzifələri əsasında müəyyənləşdirilir. Vergi məsuliyyətinin məhz bu formada reallaşması ona pozitiv məna vermiş olur.

Vergi məsuliyyətinin neqativ formada tətbiq olunması halına aşağıdakı aspektlərdən yanaşmaq olar:

- vergi qanunvericiliyinin pozulması halının olması və buna yol vermiş şəxslərə qarşı əmlak itkiləri (cərimələr, sanksiyalar, faizlər) ilə nəticələnən cəza tədbirlərinin tətbiq olunması;
- vergi hüququ subyektləri tərəfindən qanunla müəyyən olunmuş vəzifələrin icrasının məcbur edilmə yolu ilə həyata keçirilməsi.

Vergi məsuliyyəti vergi qanunvericiliyində göstərilməyən, lakin onun müddəalarından irəli gələn məqsədləri müəyyən edir. Bu məqsədlər vergi məsuliyyətinin funksiyaları vasitəsilə həyata keçirilir. Həmin funksiyalar özündə vergi məsuliyyətinin əsas təyinatını əks etdirən məsuliyyət tədbirlərinin tətbiqinin sosial nəticələri ilə sıx əlaqədədir. Vergi münasibətlərinin hüquqi tənzimlənməsi mexanizmlərində vergi məsuliyyəti iki əsas funksiyanı - sosial və hüquqi funksiyaları yerinə yetirir. Hüquqi funksiya özünü hüquqi bərpa (kompensasiya) və cərimə (cəza) şəklində büruzə verir. Vergi məsuliyyətinin hüquqi bərpa xarakteri ictimai və xüsusi subyektlər arasında meydana çıxan və vergi obyekti olan əmlak münasibətlərindən irəli gəlir. Vergi ödəyiciləri tərəfindən öz vəzifələrinin tam və vaxtında yerinə yetirilməsi ilə bağlı məsuliyyəti dövlətin əmlak maraqlarının bərpası və xəzinəyə dəyən zərərin qarşısının alınması məqsədini daşıyır. Vergi məsuliyyətinin cərimə xarakteri vergi hüquq pozuntusuna yol verilməsinə görə vergi ödəyicisinin əmlak maraqlarına zərərin vurulması ilə bağlıdır. Vergi məsuliyyətinin funksiyasına cəza xarakteri vergi hüquq pozuntularına yol vermiş subyektlərə qarşı sanksiyaların, faizlərin, inzibati və cinayət məsuliyyəti tədbirlərinin görülməsi ilə yaranır. Vergi məsuliyyətinin sosial funksiyası vergi hüquq pozuntusunun qarşısının alınmasına yönəldilməklə vergi münasibətlərinin iştirakçılarında vergi hüquq normalarına əməl etmə mədəniyyətinin formalaşdırılmasına xidmət edir. Ümumilikdə götürsək, vergi məsuliyyətinin funksiyalarının əsas məqsədi vergi münasibətlərinin hüquqi tənzimlənməsi mexanizminin normal fəaliyyətinin təmin edilməsindən ibarətdir.

Qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, vergi məsuliyyətinin əsas mahiyyəti vergi qanunvericiliyinin pozulmasına yol vermiş şəxsin dövlət tərəfindən müəyyən edilən və prosessual qaydada tətbiq olunan sanksiyaları icra etmək vəzifəsidir.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi,
baş vergi xidməti müşaviri
vergi ödəyicilərinin suallarına cavab verir

# Təsis sənədlərində dəyişiklik edilməsi

***Təsisçisi olduğum kommersiya hüquqi şəxsinin təsis sənədlərində edilmiş dəyişikliklər barədə müvafiq orqana müraciət etməməyimə görə hansı məsuliyyət daşıyıram?***

Azərbaycan Respublikasının «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» 12 dekabr 2003-cü il tarixli Qanununun 9.1-ci maddəsinə əsasən, hüquqi şəxslərin, xarici hüquqi şəxsin nümayəndəlik və ya filiallarının təsis sənədlərinə edilən hər bir dəyişiklik, eləcə də qeydə alınmış faktların hər bir sonrakı dəyişikliyi qeydiyyata alınmalıdır. Həmin maddənin 2-ci bəndində deyilir ki, dəyişikliyin qeydiyyata alınması üçün həmin dəyişikliyin baş verdiyi andan 40 gündən gec olmayaraq Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına ərizə ilə müraciət edilməlidir. Ərizədə baş vermiş dəyişiklik göstərilməli və həmin dəyişikliyi təsdiq edən sənədlər təqdim olunmalıdır. Dəyişiklik qeyd olunan Qanunun 11.3-cü maddəsinin tələblərinə zidd olmadıqda müvafiq icra hakimiyyəti orqanı 5 gün müddətində onu qeydiyyata alır. Bu maddədə nəzərdə tutulan «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini kommersiya hüquqi şəxslərinə münasibətdə Azərbaycan Respublikasının Vergilər Nazirliyinə bilavasitə tabe olan vergi orqanları həyata keçirir.

İnzibati Xətalar Məcəlləsinin 200-3-cü maddəsində hüquqi şəxslərin dövlət reyestri üçün zəruri məlumatların verilməməsi inzibati xətasına görə inzibati tənbeh tədbiri olan cərimə müəyyən olunmuşdur. Yəni hüquqi şəxslərin, habelə xarici dövlətlərin hüquqi şəxslərinin Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinin təsis sənədlərində edilmiş dəyişikliklərin və bu qurumlara dair qeydə alınmış faktların sonrakı dəyişikliyinin qeydiyyata alınması üçün Azərbaycan Respublikasının «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunu ilə müəyyən edilmiş müddətdə və qaydada müvafiq icra hakimiyyəti orqanına müraciət olunmamasına görə - vəzifəli şəxslər min manatdan iki min manatadək miqdarda, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə edilir. Bu maddədə qeyd olunan «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini kommersiya qurumlarına münasibətdə Azərbaycan Respublikasının Vergilər Nazirliyinə bilavasitə tabe olan vergi orqanları həyata keçirir. İnzibati Xətalar Məcəlləsinin 200-3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə isə kommersiya qurumlarına münasibətdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi baxır.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

# 31 mart hesabatlar üçün sonuncu gündür

*Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən, hüquqi şəxslər mənfəət, əmlak və yol vergisi, fiziki şəxslər isə gəlir vergisi bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına təqdim etməlidirlər.*

***Mənfəət vergisi***

Rezident müəssisələr, habelə Azərbaycan Respublikasında daimi nümayəndəliyi və vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyində olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər mart ayının 31-dək illik gəlir üzrə son hesablama aparmaqla (hesabat ilində Vergi Məcəlləsinin 151-ci maddəsinə əsasən aparılan cari ödəmələr nəzərə alınmaqla) mənfəət vergisini dövlət büdcəsinə ödəyirlər.

Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyir və müvafiq bəyannaməni həmin orqana təqdim edirlər. Vergi ödəyicisi olan hüquqi şəxs onun ləğv edilməsi haqqında qərarının qəbul edilməsi tarixindən, qeyri-rezidentin daimi nümayəndəliyi üçün bu tarix göstərilmədikdə isə qərarın Azərbaycan Respublikasının xarici dövlətlərdəki nümayəndəlikləri (Azərbaycan Respublikasının mənafeyini təmsil edən digər ölkənin konsulluq idarələrində) leqallaşdırıldığı tarixdən sonra 30 gün müddətində mənfəət vergisinin bəyannaməsini verməlidir. Bu bəyannamə vergi orqanına vergi ilinin əvvəlindən vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini dayandırdığı günə qədər olan dövrü əhatə edir.

***Əmlak vergisi***

Əmlak vergisi üzrə vergitutma obyektləri olan müəssisələr və Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyəti həyata keçirən qeyri-rezident müəssisələr (yalnız daimi nümayəndəliklə bağlı olan əsas vəsaitlərin orta illik dəyəri üzrə) əmlak vergisinin illik bəyannaməsini qeydiyyata olduğu vergi orqanına verirlər. Vergi ödəyiciləri əmlak vergisini dövlət büdcəsinə martın 31-dək illik əmlak vergisi üzrə son hesablama aparmaqla (Vergi Məcəlləsinin 201-ci maddəsinə əsasən aparılan cari ödəmələr nəzərə alınmaqla) ödəyirlər.

Vergi ödəyicisi olan hüquqi şəxs onun ləğv edilməsi haqqında qərarının qəbul edilməsi tarixindən, qeyri-rezidentin daimi nümayəndəliyi üçün bu tarix göstərilmədikdə isə qərarın Azərbaycan Respublikasının xarici dövlətlərdəki nümayəndəlikləri (Azərbaycan Respublikasının mənafeyini təmsil edən digər ölkənin konsulluq idarələrində) leqallaşdırıldığı tarixdən sonra 30 gün müddətində əmlak vergisinin bəyannaməsini vergi orqanına verməlidir. Bu halda hesabat dövrü vergi ilinin əvvəlindən vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini dayandırdığı günə qədər olan dövrü əhatə edir.

***Yol vergisi***

Xarici dövlətlərin avtonəqliyyat vasitələrindən yol vergisi həmin avtonəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük ərazisinə daxil olan zaman gömrük orqanları tərəfindən tutulur və bir bank günü ərzində dövlət büdcəsinə köçürülür. Azərbaycan Respublikasının ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan rezident hüquqi şəxslər yol vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir və həmin müddətədək hesablanmış vergini dövlət büdcəsinə ödəyirlər.

Azərbaycan ərazisində mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan fiziki şəxslər yol vergisi üzrə bəyannamə vermirlər. Vergini isə həmin avtomobillər dövlət büdcəsinə texniki baxışdan keçən zaman ödəyirlər. İllik yol vergisinin ödənildiyini təsdiq edən sənədlər təqdim edilmədikdə avtonəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan orqan tərəfindən onların qeydiyyatı, yenidən qeydiyyatı və texniki baxışı həyata keçirilmir.

***Gəlir vergisi***

Azərbaycan mənbəyindən gəlir əldə edən və ödəmə mənbəyində vergiyə cəlb olunmayan rezident və qeyri-rezident fiziki şəxslər, habelə ölkəmizin hüdudlarından kənarda gəlir əldə edən Azərbaycan Respublikasının rezident fiziki şəxsləri bəyannaməni qeydiyyatda olduqları vergi orqanına verirlər. Fiziki şəxslər gəlir vergisini martın 31-dək illik gəlir üzrə son hesablama aparmaqla (hesabat ilində Vergi Məcəlləsinin 151-ci maddəsinə əsasən aparılan cari ödəmələr nəzərə alınmaqla) dövlət büdcəsinə ödəyirlər. Gəlir vergisinin ödəyicisi Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətini dayandırdıqda 30 gün müddətində vergi orqanına gəlir vergisi bəyannaməsi verməlidir. Bu bəyannamə vergi ilinin əvvəlindən fəaliyyətin dayandırıldığı günə qədər olan dövrü əhatə edir.

***Bəyannamə və hesabatlar elektron formada təqdim edilə bilər***

Vergi Məcəlləsinin 72.2-ci maddəsinə uyğun olaraq, vergi hesabatları vergi ödəyiciləri tərəfindən şəxsən və ya hesabatın təqdim edilməsi təsdiq oluna bilən hər hansı digər üsulla (rabitə təşkilatına təhvil verilməsi və ya müvafiq qanunvericiliyə uyğun olaraq elektron sənəd formasında göndərilməsi də daxil olmaqla) təqdim edilə bilər. Artıq ölkəmizdə vergi ödəyiciləri bəyannamə və hesabatlarının 90%-dən çoxunu elektron formada təqdim edirlər.

***Vaxtında hesabat verməyənlərə maliyyə sanksiyaları tətbiq edilir***

Vergi Məcəlləsində hesabatın vaxtında təqdim edilməməsinə, vergilərin vaxtında ödənilməməsinə və yayındırılmasına görə maliyyə sanksiyasının tətbiqi edilməsi nəzərdə tutulmuşdur: vergi hesabatını və ya fəaliyyətin olmaması barədə arayışı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi



ödəyicisi 40 manat məbləğində cərimə olunur. Bundan başqa, verginin göstərilən məbləği hesabatda göstərilməli olan məbləğdən az göstərilmişdirsə, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılmışdırsa, vergi ödəyicisi azaldılmış və ya yayındırılmış vergi məbləğinin 50%-i məbləğində maliyyə sanksiyası ilə cəzalandırılır. Həmçinin, vergi və ya cari vergi ödəməsi Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1%-i məbləğində faiz tutulur.

**Rəşad SADIQOV**

# E-xidmətlər sahəsində islahatlar yüksək qiymətləndirilir

*Avropa Parlamentində keçirilmiş «Azərbaycanda innovasiya və mobil kimlik: Avropaya rəqəmsal inteqrasiyanın yeni növü» mövzusunda beynəlxalq konfrans Azərbaycanın inkişaf etmiş dövlətlərin qabaqcıl təcrübəsinə istinad edərək informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində düşünülmüş strategiya həyata keçirdiyini bir daha təsdiqləyib.*

Xatırlatmaq lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli fərmanı ilə elektron xidmətlərin genişləndirilməsi korrupsiyanın, məmur özbaşınalığının, süründürməçilik hallarının qarşısını alan, şəffaflığa, hesabatlılığa təminat yaradan, operativliyi, səmərəliliyi təmin edən mühüm amil kimi önə çəkilib. Fərman əsasında Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (indi Rabitə və Yüksək Texnologiyalar Nazirliyi) bu sahədə görüləcək işlərin əlaqələndiricisi olaraq «Elektron hökumət»in formalaşması üzrə digər dövlət orqanları ilə sıx fəaliyyət göstərib, müvafiq infrastrukturun yaradılması üzrə fəaliyyət həyata keçirib. Bu məqsədlə elektron imzaların istifadəsi üçün Milli Sertifikasiya Xidmətləri Mərkəzi yaradılıb, dövlət qurumlarının informasiya sistemləri arasında informasiya mübadiləsini təmin edən infrastruktur qurulub. Habelə beynəlxalq təcrübəyə əsasən, vətəndaşların dövlət orqanları ilə təmaslarının daha münasib şəkildə təşkili üçün «bir pəncərə» prinsipi əsasında təşkil olunan və dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin cəmləşdirildiyi «Elektron hökumət» portalı (www.e-gov.az) yaradılıb.

2013-cü ildə «Elektron hökumət» portalına bir sıra yeni xidmətlər əlavə edilib, ümumilikdə 262 min vətəndaş bu xidmətlərdən yararlanıb. Bu müddətdə əhaliyə təxminən 820 mindən artıq elektron xidmət göstərilib. 2020-ci ilə qədər bütün xidmətlərin elektronlaşdırılması və əhalinin 80%-nin bu xidmətlərdən istifadəsinin təmin edilməsi strateji hədəflərdən biri kimi qarşıya qoyulub.

Elektron xidmətlərin üstünlükləri yeni yaradılmış bir sıra digər portalların səmərəli fəaliyyəti fonunda praktik olaraq hiss edilir. Dövlət orqanları tərəfindən tətbiq edilən rüsum və tariflər barədə məlumatlar almaq məqsədilə «www.rusum.az» saytı, dövlət qurumlarının və vətəndaşların münasibətlərinin etik davranış çərçivəsində tənzimlənməsinə dəstək vermək, bu sahədə maarifçilik və məlumatlandırma məqsədilə «www.etika.az» saytı yaradılıb. Son illər uğurla fəaliyyət göstərən «www.e-qanun.az» saytında da ictimai münasibətlər spektrini tənzimləyən qanunlar və digər normativ hüquqi sənədlər yerləşdirilib.

Son illər korrupsiyaya qarşı mübarizə tədbirləri çərçivəsində yaradılmış «ASAN xidmət» mərkəzləri qısa müddətdə ictimaiyyətin böyük inam və etimadını qazanaraq Azərbaycanın milli brendinə çevrilib. Bu, dövlət idarəçiliyinə özəl sektorda geniş yayılmış «müştəri məmnunluğu» ideyasının tətbiqinə, dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə təkan verib.

Ölkə başçısının 2014-cü il 13 fevral tarixli «Elektron məhkəmə» informasiya sisteminin yaradılması haqqında» sərəncamı da bu sahədə ötən illərdən başlanmış işlərin keyfiyyətcə yeni mərhələdə daha da genişlənməsinə, məhkəmələrdə İKT-nin ən son nailiyyətlərinin tətbiqinə imkan verən əhəmiyyətli sənəddir. Belə bir sərəncamın imzalanması «ASAN xidmət»in yaradılması ilə vətəndaş məmnunluğuna səbəb olan müasir, sivil, şəffaf xidmətlərin məhkəmə orqanlarının fəaliyyətində geniş tətbiqinə imkan verir. Sərəncama əsasən yaradılacaq yeni sistem ərizə, şikayət və digər sənədlərin elektron formada qəbulunu; cinayət işləri, mülki, inzibati, iqtisadi mübahisələrə dair və inzibati xətalar haqqında işlər üzrə icraatın elektron qaydada aparılmasını və sənədlərin elektron dövriyyəsini və digər mühüm tədbirləri nəzərdə tutur. Məqsəd ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, insan və vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmini, müasir informasiya texnologiyalarının tətbiqi prosesinin sürətləndirilməsidir. Tətbiq olunan İKT-lər təqsirləndirilən şəxslərin və şahidlərin məhkəməyə gətirilmədən uzaq məsafədən dindirilməsinə imkan verəcəkdir.



*Elektron xidmət sahəsində novator dövlət qurumlarından olan Vergilər Nazirliyi də ötən il vergi ödəyicilərinə bir sıra yeni elektron xidmətlər təqdim edib*

Elektron xidmət sahəsində novator dövlət qurumlarından olan Vergilər Nazirliyi də ötən il vergi ödəyicilərinə bir sıra yeni elektron xidmətlər təqdim edib. 2013-cü ildə elektron və mobil imzaların tətbiqi məqsədilə Sertifikat Xidməti Mərkəzinin fəaliyyətə başlaması elektron və mobil imzaların tətbiqi ilə vergi ödəyicilərinin daha sürətli, təhlükəsiz və çevik şəkildə Vergilər Nazirliyinin elektron xidmətlərdən istifadəsinə təkan verib. Nazirlik ötən il vergi ödəyicilərinə daha beş elektron xidmətin göstərilməsinə start verib. Bununla əlaqədar müvafiq inzibati reqlamentlərin layihələri hazırlanaraq elektron xidmətlər reyestrinin operatoru funksiyalarını həyata keçirən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə razılaşdırılıb. Beləliklə, nazirlik tərəfindən «Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) onlayn qeydiyyatdan çıxarılması», «Hüquqi şəxsin uçot məlumatlarının onlayn dəyişdirilməsi», «Fiziki şəxsin uçot məlumatlarının onlayn dəyişdirilməsi», «Hüquqi şəxsin filialının, nümayəndəliyinin uçot məlumatlarının onlayn dəyişdirilməsi», «Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) uçot məlumatlarının onlayn dəyişdirilməsi» üzrə elektron xidmətlərin göstərilməsinə başlanılıb.

Vergi və rüsumların internet vasitəsilə ödənilməsi üçün elektron ödəniş sisteminin tətbiqi də səmərəli nəticələr verib. 2013-cü il ərzində 174,1 milyon manatdan artıq vəsait dövlət büdcəsinə elektron qaydada ödənilib və bu da 2012-ci ilə nisbətən iki dəfə çoxdur.

«Azərbaycanda innovasiya və mobil kimlik» mövzusunda Avropa Parlamentində keçirilmiş konfransda ölkəmizin bu və digər uğurları bir daha vurğulanıb, vətəndaşlara, o cümlədən vergi ödəyicilərinə xidmətlərin «bir pəncərə» prinsipi üzrə göstərilməsi alqışlanıb. Avropa Parlamentinin Estoniyadan olan deputatı, bu ölkənin sabiq xarici işlər naziri xanım Kristina Oyuland respublikamızın bu sahədəki uğurlarını, xüsusən də «ASAN xidmət»in yaradılmasını xüsusi qeyd edib. Digər çıxışlarda da çox qısa müddətdə populyarlıq qazanmış «ASAN xidmət»in nailiyyətləri qeyd edilib, bunun təkcə vətəndaşlar üçün deyil, həm də hökumət üçün faydalı olduğu bildirilib.

**S.MUSTAFAYEV**

# Üçüncü regional inkişaf proqramı və vergi siyasətinin əsas istiqamətləri

*«Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda ölkənin ortamüddətli dövr üzrə strateji inkişaf istiqamətləri - maliyyə, bank, vergi, gömrük, qiymətli kağızlar, sığorta, pul-kredit siyasəti, kənd təsərrüfatı, sənaye, İKT, turizm və digər sahələrin inkişafı ilə bağlı konkret tədbirlər planı müəyyən olunub.*

Dövlətin iqtisadi siyasətinin əsas qayəsi qarşıdakı illərdə makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadi tənzimləmənin alət və mexanizmlərinin səmərəliliyinin artırılması, ölkənin iqtisadi potensialının gücləndirilməsi və milli iqtisadiyyatın rəqabətqabiliyyətlilik, intellektual-texnoloji səviyyəsinin yüksəldilməsi, qeyri-neft sektorunun dinamik inkişaf etdirilməsi və qeyri-neft məhsullarının ixracının genişləndirilməsi, sosial yönümlü siyasətin davam etdirilməsidir.

Növbəti illərdə vergi siyasətinin əsas istiqamətləri sahibkarlığın müasir sahələrinin, o cümlədən innovativ sahibkarlığın inkişaf etdirilməsinə, investisiya qoyuluşlarının genişləndirilməsinə, aktiv vergi siyasətinin həyata keçirilməsinə, vergi inzibatçılığının müasir İKT sferasında daha da təkmilləşdirilməsinə, vergi dərəcələrinin optimallaşdırılmasına, vergi siyasətinin fiskal və tənzimləyici funksiyalarının təkmilləşdirilməsinə, beynəlxalq vergi qanunvericiliyinə inteqrasiyanın sürətləndərilməsinə yönəldiləcəkdir. Bu məqsədlə Dövlət Proqramında 2014-2018-ci illərdə respublikamızın vergi siyasətinin əsas istiqamətləri də müəyyən edilib. Ədalətli rəqabət mühitinin formalaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi, vergi siyasətinin və vergi dərəcələrinin optimallaşdırılması, sahibkarlara göstərilən vergi xidmətlərinin yaxşılaşdırılması və əhatə dairəsinin genişləndirilməsi məqsədilə xidmət terminallarının yaradılması regional inkişaf proqramı çərçivəsində görülməsi nəzərdə tutulan əsas tədbirlərdəndir. Bütün vergi ödəyiciləri üçün bərabər iqtisadi şəraitin yaradılması, ölkədə sahibkarlığın inkişafı və azad rəqabətin formalaşması vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsinin əsas prinsiplərindən hesab olunur. Vergilər Nazirliyi Mərkəzi Bank, İqtisadiyyat və Sənaye Nazirliyi və digər qurumlarla birgə müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə elektron xidmətlərin genişləndirilməsi və təkmilləşdirilməsi, nağdsız ödənişlərin stimullaşdırılması, ödəniş sistemləri bazarının inkişafı, elektron ödəniş xidmətlərinin institusional bazasının gücləndirilməsi və ödəniş xidmətlərindən istifadə effektivliyinin artırılması, bu xidmətlərdən istifadə üzrə maarifləndirmənin artırılması, əhali və iqtisadi subyektlərin elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə cəlb olunması, sahibkarlıq fəaliyyəti üçün əlverişli vergi mühitinin yaradılması, iqtisadiyyata investisiya qoyuluşunun və innovasiya fəaliyyətinin stimullaşdırılması üçün bir sıra tədbirlər həyata keçirəcək.

**Ölkədə sahibkarlığın inkişafı və azad rəqabətin formalaşması vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsinin əsas prinsiplərindən hesab olunur**

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Natiq Şirinovun sözlərinə görə, regional inkişaf proqramı ilə yanaşı, «2013-2020-ci illərdə vergi sisteminin İnkişaf Strategiyası»na uyğun olaraq qarşıdakı illərdə mütərəqqi, mükəmməl və beynəlxalq standartlara cavab verən, innovasiya yönümlü iqtisadiyyatın inkişafını təmin edən və qeyri-neft sektorunun ixrac potensialını gücləndirən vergi siyasətinin həyata keçirilməsi, vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq prinsiplərinə əsaslanan keyfiyyətcə yeni əməkdaşlıq əlaqələrinin yaradılması, vergiödəmə vərdişlərinin cəmiyyətin davranış normasına çevrilməsinə nail olmaq başlıca məqsədlərdəndir.

Qarşıdakı illərdə vergi siyasətinə keçidin təmin edilməsi, vergilər üzrə güzəşt və azadolmaların səmərəliliyinin qiymətləndirilməsi, vergi bəyannamələrinin əvvəlcədən doldurulma sisteminə keçilməsi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və keçidin təmin olunması, ümumi bəyannamə sisteminə keçidə hazırlığın görülməsi, vergi ödəyicilərinə xidmət sisteminin təkmilləşdirilməsi, maarifləndirmə tədbirlərinin genişləndirilməsi strateji vəzifələrdəndir. Bunlarla yanaşı, transfert qiymətləndirmənin tənzimlənməsi mexanizmlərinin yaradılması, nağdsız ödənişlərin stimullaşdırılması və nağd ödənişlərə nəzarət tədbirlərinin gücləndirilməsi, e-auditin tətbiqi üzrə kompleks tədbirlərin görülməsi, vergi inzibatçılığının səmərəliliyinin artırılması, e-ticarətə vergi nəzarətinin təşkili, vergi borclarının alınması mexanizminin və vergidən yayınma halları üzrə istintaq mexanizmlərinin təkmilləşdirilməsi, vergi orqanlarında tədris və təlim prosesinin gücləndirilməsi, bələdiyyələrin vergi qanunvericiliyinə riayət edilməsi sahəsində metodiki rəhbərliyin həyata keçirilməsi əsas tədbirlərdəndir.

Qarşıdakı mərhələdə innovativ və biliklərə əsaslanan iqtisadi siyasətin gücləndirilməsi biznesin inkişafında da yeni meyillər yaradacaq, iqtisadi subyektlərin sayının artmasına imkan verəcək. Nəticədə biznesin miqyasının artması vergi sistemində dəyişikliklərə səbəb olacaq, vergitutma bazasının genişlənməsinə imkan verəcəkdir.

**E.CƏFƏRLİ**

# Sahibkarlığın inkişafı naminə...

## *Fiziki şəxslərin «bir pəncərə» prinsipi üzrə elektron qeydiyyatının prosedur və müddətləri azaldılacaq*

*Prezident İlham Əliyev ölkədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə «Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» fərman imzalayıb.*

Sənəddə tikintiyə icazələrin verilməsi sahəsində mövcud prosedur və müddətlərin azaldılması, elektrik təchizatı şəbəkəsinə qoşulma sahəsində sənədlərin elektron qaydada qəbulunun təşkili, prosedur, müddət və xərclərin azaldılması, daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı sahəsində prosedurların sadələşdirilməsi nəzərdə tutulur. Yeni tədbirlər çərçivəsində korporativ idarəetmənin təkmilləşdirilməsi və investorların maraqlarının qorunması, idxal-ixrac əməliyyatları zamanı tələb olunan sənədlərin, müddət və xərclərin azaldılması ilə əlaqədar mühüm mexanizmlər tətbiq ediləcək.



İqtisadiyyat və Sənaye Nazirliyinin şöbə müdiri Zaur Qasımovun bildirdiyinə görə, Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması, sağlam rəqabət mühitinin təmin edilməsi, biznesə başlama prosedurlarının sadələşdirilməsi, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, sahibkarların maarifləndirilməsi və qanunvericiliyin təkmilləşdirilməsi prioritet məsələlərdir: «Son illər sahibkarlıq fəaliyyəti növlərinin lisenziyalaşdırılması sahəsində bir sıra işlər görülüb, sahibkarlığın inkişafına mane olan halların aradan qaldırılması üçün addımlar atılıb: lisenziya verən dövlət orqanları tərəfindən sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara qarşı neqativ hallar aradan qaldırılıb, bürokratik əngələrə son qoyulub. Sahibkarlığın inkişafına dövlət qayğısının artırılması məqsədilə xüsusi icazə tələb edən fəaliyyət növlərinin sayı kəskin surətdə azaldılıb, lisenziya müddəti uzadılıb, lisenziya verilməsi prosesində dövlət orqanları tərəfindən sui-istifadə hallarına yol verməyən və bu sahədə şəffaflığı təmin edən qaydalar tətbiq edilib».

Bir ildən artıqdır ki, sahibkarlıq subyektlərininə verilən bütün icazələr barədə məlumatları əks etdirən vahid reyestr internet portalı yaradılıb, icazələr sisteminin təkmilləşdirilməsi və elektron ödənişlər istiqamətində mühüm addımlar atılıb. Fiziki və hüquqi şəxslər üçün lisenziyaların verilməsi, qrant müqavilələrinin alınmasının elektron qaydada aparılması üçün infrastruktur yaradılıb: «2012-ci ildən sahibkarlar üçün verilən lisenziyalar, mənşə və keyfiyyət sertifikatları elektron qaydada həyata keçirilir. Sahibkarlar tələb olunan sənədləri elektron formada təqdim etməklə yanaşı, həmin xidmətlər üçün qanunvericiliklə müəyyən olunmuş bütün dövlət rüsumlarının və xidmət haqlarının ödənişini də onlayn rejimdə həyata keçirirlər. Bu məqsədlə İSN-in internet saytında yaradılmış elektron xidmətlər bölməsi vasitəsilə müxtəlif fəaliyyət növlərinə verilən lisenziya və sertifikatlar, xidmətlərin göstərilməsi üçün tələb olunan sənədlərin siyahısı və müraciət edən şəxs tərəfindən doldurulmalı olan ərizə və digər sənədlərin elektron forması yerləşdirilib. Elektron xidmətlər bölməsində 7 istiqamət üzrə interaktiv, 9 istiqamət üzrə isə informativ elektron xidmətlər göstərilir. Nazirliyin daxili informasiya sistemi Mərkəzi Bank tərəfindən yaradılmış Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminə (KÖMİS) də inteqrasiya olunub. Bu isə sahibkarların həm lisenziyaların alınması, həm də cərimə və maliyyə sanksiyalarının onlayn rejimdə elektron formada ödənilməsinin tam təmin olunması deməkdir».

Mütəxəssis bildirib ki, «Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» yeni fərman sahibkarlıq sektorunda yeniliklərin tətbiq olunmasına, dövlət-biznes münasibətlərinin minimuma enməsinə və nəticədə şəffaflığa geniş zəmin yaradır, korrupsiyaya şərait yaradan halların aradan qaldırılmasına kömək edir. Bu sahədə tədbirlərin həyata keçirilməsi sahibkarlıq sektorunda e-xidmətlərin spektrinin genişlənməsi, rüsumların və digər ödənişlərin real vaxt rejimində elektron formada ödənilməsinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Elektron xidmətlərin tətbiqi biznes sektorunda səmərəliliyin yüksəlməsinə, sahibkarlar və icra strukturları arasında əlaqələrin keyfiyyətinin yaxşılaşmasına, operativliyin təmin olunmasına, şəffaflığın artırılmasına müsbət təsir göstərəcək.

Fərmanda Vergilər Nazirliyi ilə də bağlı mühüm vəzifələr müəyyən olunub. Nazirliyə müvafiq dövlət qurumları ilə birlikdə hüquqi şəxslərin və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin «bir pəncərə» prinsipi əsasında elektron qeydiyyatı zamanı prosedur və müddətlərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflər hazırlamaq tapşırılıb. Z.Qasımov hesab edir ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin elektron qeydiyyatının daha da sadələşdirilməsi biznes mühitinin yaxşılaşmasına, sahibkarların sayının artmasına müsbət təsir göstərəcək. Prosedur və qaydaların təkmilləşdirilməsi, müddətin azaldılması Azərbaycanın beynəlxalq təşkilatların hesabatlarında mövqeyinin daha da yaxşılaşmasına şərait yaradacaq. Qeyd edək ki, Azərbaycan Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan «Doing Business 2014» hesabatında biznesin elektron qeydiyyatının tətbiqinin genişləndirilməsi (biznesə başlama) göstəricisi üzrə ilk dəfə dünya ölkələrinin top-onluğuna daxil edilib. Hazırda bu istiqamətdə tədbirlərin davam etdirilməsi, e-qeydiyyatla bağlı müasir texnologiyaların tətbiqi ölkəmizin beynəlxalq səviyyədə rəqabətqabiliyyətliliyinin artmasına və biznesin vəziyyəti üzrə mövqeyinin daha da yaxşılaşmasına səbəb olacaq.

**Elbrus CƏFƏRLİ**

# «Pensiya+» xidməti populyarlaşır

*Əmək pensiyalarının daha da mütərəqqi üsullarla ödənilməsi sisteminin genişləndirilməsi «2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı»nın əsas məqsədlərindəndir.*

Proqrama uyğun olaraq, pensiyaların plastik kartlarla bankomatlar vasitəsilə ödənilməsi sisteminin daim təkmilləşdirilməsi davam etdirilir, ödənişlərdə çoxfunksiyalı çip kartlardan istifadənin təmin olunması üzrə müxtəlif ölkələrin təcrübəsi öyrənilir. Pensiyaların ödənişində kart sisteminin tətbiqi sığorta-pensiya sahəsində həyata keçirilən ən uğurlu islahat tədbirlərindən biri hesab edilir. Ölkəmizdə 2004-cü ildən pensiyaların plastik kartlarla ödənilməsinə başlanılıb və nəticədə pensiyaların əhaliyə çatdırılmasında uzun illərdən bəri mövcud olan problemlər aradan qaldırılıb. Hazırda kənd yerlərində yaşayan pensiyaçıların 99,7%-nin, şəhərlərdə yaşayan pensiyaçıların 100%-nin, ümumilikdə isə ölkə üzrə bütün pensiyaçıların 99,9%-nin pensiyasının plastik kartlarla ödənilməsi təmin olunub.



**Kredit limiti yalnız nağdsız alış-veriş zamanı istifadə oluna bilər və bu xidmətə görə hər hansı xidmət haqqı tutulmur**

Əmək pensiyaçılarının çoxfunksiyalı plastik kartlarından nağdsız ödəniş vasitəsi kimi istifadə etməsinə nail olmaq üçün müxtəlif tədbirlər həyata keçirilir. «Pensiya+» xidmətinin istifadəyə verilməsi də bu tədbirlər sırasındadır. Bu, nağdsız hesablaşmaların əhatə dairəsinin genişləndirilməsi üçün atılan mühüm addım hesab edilir. «Pensiya+» xidməti çərçivəsində Azərbaycan Beynəlxalq Bankına (ABB) məxsus bütün pensiya kartlarının sahibləri üçün avtomatik olaraq 100 manat məbləğində hər ay yenilənən faizsiz kredit limitindən istifadə imkanı yaradılır. Bu məbləğ pensiyaçının müraciəti əsasında artırıla bilər. Kredit limiti yalnız nağdsız alış-veriş zamanı istifadə oluna bilər və bu xidmətə görə hər hansı xidmət haqqı tutulmur. Pensiyaçı öz pensiya vəsaitini tam xərclədikdən sonra kreditdən yararlana bilər.

İlkin mərhələdə «Pensiya+» xidmətinə yalnız ABB-nin bank kartları vasitəsilə pensiya alan müştərilər avtomatik olaraq qoşulacaq. Pensiyaçının kredit limitindən istifadə etdiyi məbləğ borc şəklində növbəti ayın pensiya məbləğindən avtomatik olaraq çıxılacaq. Borc tam ödənildikdən sonra kredit limiti yenidən aktivləşəcək.

Yanvar ayının 28-də istifadəyə verilən bu xidmətdən istifadə edənlərin sayı durmadan artır. DSMF-nin Əmək pensiyaları şöbəsinin müdiri Elşən Məmmədəliyev mətbuat üçün açıqlamasında bildirib ki, layihənin reallaşdırılmasından ötən müddətdə bu xidmətdən 1000 nəfərə yaxın pensiyaçı faydalanıb. Nəticədə pensiyaçılar tərəfindən reallaşdırılan nağdsız ödənişlərin dövriyyəsi iki dəfə çoxalıb. Artıq kommunal ödənişləri də «Pensiya+» layihəsi çərçivəsində həyata keçirməyin mümkün olduğunu deyən DSMF rəsmisi yaxın müddət ərzində bu xidmətdən istifadə edənlərin sayının əhəmiyyətli şəkildə artacağının gözlənildiyini qeyd edib.

**AYTƏN**


# VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

***2013-cü ilin yekunlarına görə***

- *gəlir vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin bəyannaməsini;*
- *mənfəət vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident hüquqi şəxslər mənfəət vergisinin bəyannaməsini;*
- *əmlak vergisinin ödəyicisi olan müəssisələr əmlak vergisinin bəyannaməsini;*
- *Azərbaycan Respublikasının ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər, o cümlədən büdcə təşkilatları yol vergisinin bəyannaməsini*

***mart ayının 31-dən gec olmayaraq***

*vergi orqanına təqdim etməyə, hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməyə borcludurlar.*

***Diqqətinizə çatdırırıq ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 57-ci, 58-ci və 59-cu maddələrinə əsasən:***

- *vergi hesabatını və vergi öhdəliyinin yaranmaması barədə arayışı müəyyən olunan müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının qərarına əsasən **40 manat** məbləğində;*
- *büdcəyə çatası vergi məbləğini hesabatı təqdim etməməklə yayındırdıqda, vergi ödəyicisinə yayındırılmış vergi məbləğinin **50 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir; və*
- *vergilər qanunla müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün, ancaq bir ildən çox olmamaqla, vergi ödəyicisindən ödənilməmiş vergi məbləğinin **0,1 faizi** miqdarında faiz tutulur.*

***Əlavə məlumat almaq üçün «195» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.***

**Azərbaycan Respublikası Vergilər Nazirliyi**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

## Fiziki şəxslərin əmək münasibətlərindən kənar mülki-hüquqi müqavilə çərçivəsində işləməsinin auditi

Bəzi müəssisələrdə, əsasən də xidmətlərin göstərilməsi və işlərin görülməsinə aid fəaliyyətlərlə məşğul olan kommersiya müəssisələrində əvvəlcə işçi kimi qəbul edilməsi nəzərdə tutulan fiziki şəxslərlə əmək müqaviləsi bağlanılması əvəzinə sonradan mülki-hüquqi müqavilələr bağlanılması hallarına rast gəlmək olur. Əlbəttə ki, aparılan audit zamanı rəhbər vəzifəli şəxslər (işəgötürənlər) bunu qanunamüvafiq həyata keçirdiklərini bildirsələr də, bəziləri bunu təsdiqləməkdə çətinlik çəkirlər.

Hazırda ölkəmizdə 500 mindən çox vergi ödəyicisi vardır, bunun da 80%-dən çoxu fiziki şəxslərdir və fərdi sahibkar (fiziki şəxs) kimi vergi orqanında uçota duranların sayı gündən-günə artmaqdadır. Lakin bu artımın səbəbləri müxtəlif şübhəli amillərlə, məsələn, vergidən yayınma ilə də bağlı ola bilər.

İşəgötürənlər tərəfindən bəzi hallarda əmək müqaviləsi məqsədyönlü şəkildə podrat, yaxud hər hansı digər mülki-hüquqi müqavilə ilə düzgün və ya düzgün olmayaraq əvəzlənərək həmin fiziki şəxslərlə (dolayısı ilə işçilərlə) sifarişçilər (dolayısı ilə işəgötürənlər) arasında xidmətlərin göstərilməsi və ya işlərin görülməsi barədə müqavilələrin bağlanılmasına üstünlük verilməsi həmin fiziki şəxslərin vergi dəyicisi kimi uçota alınmasına gətirib çıxarır.

İşəgötürənlər bunu ona görə belə edə bilərlər ki, işçinin əməkhaqqından tutmaqla 14% gəlir vergisini və 3% məcburi sosial sığorta haqqını, həmçinin əməkhaqqı fonduna müvafiq 22% məcburi sosial sığorta haqqını ödəməkdənsə, əmək ödənişini göstərilən xidmətlərin dəyəri kimi muzda çevirərək muzdun 4%-i qədər sadələşdirilmiş vergi, həmçinin ayda standart olaraq 21 manat (ticarət və tikinti işləri istisna ollmaqla) sosial sığorta haqqı ödənişinə və bununla da işçiyə daha çox haqq ödənilməsinə nail olsunlar.

Lakin bütün bunları qanuni şəkildə tədiyələrin minimallaşdırılması kimi qiymətləndirərək sənədləşmələr apardığını düzgün hesab edən vergi ödəyiciləri aparılan yoxlamalar zamanı acı nəticələrlə rastlaşa bilərlər.

Audit zamanı rast gəlinə biləcək şübhəli məqamlar aşağıdakılar ola bilər:

- Bağlanılan mülki-hüquqi müqavilənin müddəalarının əmək müqaviləsinin müddəalarından fərqləndirən əsas cəhətləri bir-birinə daha çox oxşayır;
- Xidmətlərin göstərilməsinin nəticələrinə dair tərtib olunan akt mükəmməl olmur;
- Aktda xidmətin nəticələrini əks etdirən sənədlərin və ya xidmətin nəticəsi olan əşyanın adı, miqdarı və digər göstəriciləri əks etdirilmir;
- Fiziki şəxs faktiki olaraq konkret saatlarda işə gəlir və gedir;
- Fiziki şəxs digər işçilərlə birlikdə tabellərə imza edir;
- İşəgötürən və ya digər rəhbər işçilər həmin fiziki şəxslə digər işçilərlə davrandığı kimi rəftar edir;
- Fiziki şəxs hər ay müxtəlif miqdar iş görməsinə baxmayaraq, eyni məbləğ alır;
- Görülən işin və ya göstərilən xidmətin həcminə uyğun ölçüləri, qiyməti və miqdarı bilinmir;
- Mülki müqavilə bağlanması təklifinin işəgötürən tərəfindən edilməsinə görə, fiziki şəxs mülki müqavilə çərçivəsində işləməyin qaydalarını və qanuni tələblərini bilmir;
- Fiziki şəxs könüllü və ya düşünərək (öz iradəsi ilə) mülki-hüquqi müqavilə bağlamır, onun kortəbii surətdə işəgötürənin təkidi ilə mülki-hüquqi müqavilə bağlanmasına razılıq verdiyi üzə çıxır;
- Bəzən elə olur ki, fiziki şəxsin göstərdiyi xidmətin adına uyğun ştat cədvəlində vakant iş yeri olur;
- Mülki-hüquqi müqavilə bağlanılan fiziki şəxs vergi, sosial sığorta və digər orqanlara təqdim olunmalı müvafiq bəyannamələrin və hesabatların necə və harada tərtib edilməsi barədə xəbərsizdir;
- Onların vergi və digər hesabatları işlədiyi (xidmət göstərdiyi) müəssisədə tərtib olunur.

Bütün bu sadalanan məqamlar auditorda belə rəy formalaşdırır ki, işçi işəgötürən tərəfindən təklif olunmaqla fərdi sahibkar kimi uçota alınıb və necə deyərlər, işəgötürən işçinin sosial imtiyazlarını, işçi qarşısında əmək məsuliyyətini azaltmaqla və öz vergilərini minimallaşdırmaqla sui-istifadə hallarına yol vermişdir.

Sui-istifadə hallarına yol verilməsi barədə rəyin verilməsi üçün əsasları qanunvericiliyin müddəalarında da görmək olar.

Davamı növbəti sayımızda

## Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**4-cü MƏRHƏLƏ** *(davamı)*

Hörmətli oxucular, bir daha xatırlatmaq istəyirik ki, qəzetin 05.03.2014-cü il tarixli 09 (699)-cu sayında Baş kitabın tərtib olunması ilə bağlı tövsiyələrimizi sizə təqdim etmişdik və bu, davam edir. Baş kitabın tərtib olunması qəzetin 05.02.2014-cü il tarixli 05 (695)-ci sayında, 19.02.2014-cü il tarixli 07 (697)-cü sayında və 26.02.2014-cü il tarixli 08 (698)-ci sayında göstərilən 49 sayda əməliyyata verilən ikili yazılışı əks etdirən əməliyyat jurnalı əsasında həyata keçirilir. Diqqətinizə çatdırmaq istəyirik ki, Baş kitab işləndikdən sonra sınaq balansı tərtib olunacaqdır. Lakin ilk olaraq sınaq balansının hazırlanması üçün əməliyyat jurnalında əks etdirilən 49 sayda əməliyyatın hələlik yalnız 45-ni nəzərə alacağıq və həmin 45 əməliyyat çərçivəsində Baş kiatıb tərtib edəcəyik (fərz edək ki, 46, 47, 48 və 49-cu əməliyyatlar hələ məlum deyil). Baş kitabın tərtib olunması üzrə tövsiyələrimizi davam etdiririk. Əməliyyatlar ümumi xarakler daşıdığına görə tarixləri əks etdirməyəcəyik, tarix yerində şərti olaraq əməliyyatın №-ni qeyd edəcəyik):

**№ 222, «Bank – milli valyuta ilə cari hesab»**
*(hesabın №-si və adı)*

| № | Əməliyyatın məzmunu | Dövriyyə Debet | Dövriyyə Kredit | Son qalıq Debet | Son qalıq Kredit |
|---|---|---|---|---|---|
| | 01.01.2014-cü il tarixə qalıq | | | 0 | |
| 2 | Müəssisənin milli valyutada bank hesabına bank krediti daxil olmuşdur (kredit alınmışdır) | 190000 | | 190000 | |
| 3 | Milli valyutada bank hesabından kassaya nağd pul götürülmüşdür | | 38000 | 152000 | |
| 4 | Milli valyutada bank hesabından bank xidməti haqqı alinmişdır (tutulmuşdur) | | 190 | 151810 | |
| 8 | Alınmış generalor və kassa aparatının dəyəri milli valyutada bank hesabından malsatana ödənilib | | 50000 | 101810 | |
| 12 | Alınmış malların dəyərinin bir hissəsi milli valyutada bank hesabından malsatana ödənilib | | 100000 | 1810 | |
| 13 | Alıcılardan milli valyutada bank hesabına pul daxil olub | 170000 | | 171810 | |
| 26 | İstifadə olunmuş qazın dəyəri milli valyutada bank hesabından "Azəriqaz" ASC-yə ödənilib | | 900 | 170910 | |
| 28 | Əmək haqqından tutulan gəlir vergisi milli valyutada bank hesabından dövlət büdcəsinə ödənilib | | 2520 | 168390 | |
| 35 | Bankdan alınmış kreditin bir hissəsi milli valyutada bank hesabından ödənilib | | 110000 | 58390 | |
| 40 | Əmək haqqından tutulan sosial sığorta haqqı milli valyutada bank hesabından DSMF-nə ödənilib | | 300 | 58090 | |
| 41 | İşçilərə əmək haqqının bir hissəsi milli valyutada bank hesabından əmək haqqı kartlarına yüklənmişdir | | 5000 | 53090 | |
| 42 | 22% hesablanmış sosial sığorta haqqının bir hissəsi milli valyutada bank hesabından DSMF-nə ödənilib | | 1500 | 51590 | |
| 43 | Kredit faizi tam olaraq milli valyutada bank hesabından ödənilib | | 12660 | 38930 | |

**№ 301, «Nominal (nizamnamə) kapital»**
*(hesabın №-si və adı)*

| № | Əməliyyatın məzmunu | Dövriyyə Debet | Dövriyyə Kredit | Son qalıq Debet | Son qalıq Kredit |
|---|---|---|---|---|---|
| | 01.01.2014-cü il tarixə qalıq | | | | 0 |
| 1 | Təsisçinin qərarına əsasən nizamnamə kapitalı formalaşdırılıb | | 30000 | | 30000 |

**№ 302, «Nominal (nizamnamə) kapitalın ödənilməmiş hissəsi»**
*(hesabın №-si və adı)*

| № | Əməliyyatın məzmunu | Dövriyyə Debet | Dövriyyə Kredit | Son qalıq Debet | Son qalıq Kredit |
|---|---|---|---|---|---|
| | 01.01.2014-cü il tarixə qalıq | | | 0 | |
| 1 | Təsisçinin qərarına əsasən nizamnamə kapitalı formalaşdırılıb | 30000 | | 30000 | |
| 1 | Təsisçidən nizamnamə kapitalı qoyuluşu kimi müəssisənin kassasına pul daxil olub | | 30000 | 0 | |

**№ 501, «Qısamüddətli bank kreditləri»**
*(hesabın №-si və adı)*

| № | Əməliyyatın məzmunu | Dövriyyə Debet | Dövriyyə Kredit | Son qalıq Debet | Son qalıq Kredit |
|---|---|---|---|---|---|
| | 01.01.2014-cü il tarixə qalıq | | | | 0 |
| 2 | Müəssisənin milli valyutada bank hesabına bank krediti daxil olmuşdur (kredit alınmışdır) | | 190000 | | 190000 |
| 35 | Bankdan alınmış kreditin bir hissəsi milli valyutada bank hesabından ödənilib | 110000 | | | 80000 |

**№ 521, «Vergi öhdəlikləri»**
*(hesabın №-si və adı)*

| № | Əməliyyatın məzmunu | Dövriyyə Debet | Dövriyyə Kredit | Son qalıq Debet | Son qalıq Kredit |
|---|---|---|---|---|---|
| | 01.01.2014-cü il tarixə qalıq | | | | 0 |
| 18 | Əməkhaqqından 14% gəlir vergisi tutulmuşdur (yəni dövlət büdcəsinə ödənilməli vergi) | | 2520 | | 2520 |
| 28 | Əməkhaqqından tutulan gəlir vergisi milli valyutada bank hesabından dövlət büdcəsinə ödənilib | 2520 | | | 0 |

**№ 522, «Sosial sığorta və təminatlar üzrə öhdəliklər»**
*(hesabın №-si və adı)*

| № | Əməliyyatın məzmunu | Dövriyyə Debet | Dövriyyə Kredit | Son qalıq Debet | Son qalıq Kredit |
|---|---|---|---|---|---|
| | 01.01.2014-cü il tarixə qalıq | | | | 400 |
| 19 | Əməkhaqqından 3% məcburi sosial sığorta haqqı tutulmuşdur | | 540 | | 940 |
| 20 | İnzibati sahə üzrə məcburi sosial sığorta haqqı hesablanıb (əməkhaqqının 22 %-i qədər) | | 1100 | | 2040 |
| 21 | Mağaza sahəsi üzrə məcburi sosial sığorta haqqı hesablanıb (əməkhaqqının 22 %-i qədər) | | 2860 | | 4900 |
| 40 | Əməkhaqqından tutulan sosial sığorta haqqı milli valyutada bank hesabından DSMF-nə ödənilib | 300 | | | 4600 |
| 42 | 22% hesablanmış sosial sığorta haqqının bir hissəsi milli valyutada bank hesabından DSMF-nə ödənilib | 1500 | | | 3100 |

Davamı növbəti sayımızda

vergi təqvimi

**MART**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | | | | 1 | 2 |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
| 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |
| 24/31 | 25 | 26 | 27 | 28 | 29 | 30 |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

27 mart - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».
31 mart - «1», «2», «5» və «7».

**«1» - Gəlir vergisi:** Gəlir vergisi üzrə hesabat dövrü təqvim ilidir. Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına bəyannamə verir və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisini dövlət büdcəsinə ödəyirlər.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«2» - Mənfəət vergisi:** Mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Mənfəət vergisinin ödəyicisi hesab edilən rezident müəssisələr, habelə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) vergini ödəyir və qeydiyyatda olduğu vergi orqanına bəyannamə təqdim edir.

Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə), digər müəssisələr isə dövlət büdcəsinə ödəyirlər.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Müəssisənin əmlak vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Əmlak vergisinin ödəyicisi olan müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verir və vergini həmin müddətədək son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) dövlət büdcəsinə ödəyir.

**«7» - Yol vergisi:** Müəssisənin yol vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Azərbaycan Respublikasının ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər yol vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir və həmin müddətədək hesablanmış vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

vergi cinayətləri

## Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Sahibkar Xanım Həşimova «Dərya-L» MMC-ni dəftərxana və ofis ləvazimatlarının satışı məqsədilə təsis etmişdi. Müəssisə tezliklə uğur qazanmış, müştərilərinin əhatə dairəsi kifayət qədər böyümüşdür: xırda şirkətlərdən tutmuş iri təhsil müəssisələrinə, dövlət idarələrinə qədər müxtəlif müştərilər onunla işgüzar əlaqə yaratmışdır. Lakin qanunçuluğa etinasız yanaşan X.Həşimovaya biznes uğuru problem yaratmışdır.

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşlarının apardıqları araşdırmalar nəticəsində məlum olmuşdur ki, «Dərya-L» MMC-nin rəhbəri vergi orqanına təqdim olunmuş bəyannamələri bilə-bilə təhrif etmiş və bununla da 4343,54 manat məbləğində sadələşdirilmiş vergini dövlət büdcəsinə ödəməkdən yayındırmışdır.

Cinayət Məcəlləsinin 213.1-ci maddəsi ilə təqsirləndirilərək barəsində cinayət işi açılan sahibkarın əməllərində digər qanunsuzluqlar da aşkarlanmışdır: onun rəhbərlik etdiyi digər müəssisənin - «Eleqant-X» MMC-nin fəaliyyətində vergidən yayınma hallarının miqyası daha böyükdür. Sahibkarın məqsədli şəkildə dövlət büdcəsinə ödəməkdən yayındırdığı verginin məbləği 9238,04 manat təşkil edir. Bu fakt üzrə X.Həşimova barəsində CM-in 213.1-ci maddəsi ilə ayrıca cinayət işi başlanmışdır. Sonradan bir şəxsin bir neçə cinayət törətməsi barədə cinayət təqibi bir icraatda birləşdirilmişdir.

Aparılmış istintaq zamanı «Dərya-L» və «Eleqant-X» MMC-lərdə baş verən qanunsuzluqlarda digər şəxslərin iştirakının olmadığı müəyyən edilmişdir. Bütün cinayətlərin X.Həşimova tərəfindən baş verməsi əsaslı sübut və faktlarla, şahid ifadələri ilə təsdiqlənmişdir. İstintaqa verdiyi ifadələrdə ona qarşı elan olunmuş ittiham üzrə özünü təqsirli bildiyini etiraf edən sahibkar Sumqayıt Şəhər Məhkəməsinin hökmü ilə 1 il 6 ay islah işlərinə cəlb olunmaqla azadlıqdan məhrum edilmişdir.

**ELBRUS**

beynəlxalq panoram

# ABŞ-ın federal büdcə layihəsi təqdim edildi



Prezident Barak Obama ölkənin 2015-ci maliyyə ili üzrə 3,9 trilyon dollar məbləğində federal büdcəsini təqdim etmişdir. Ağ evdən Konqresə göndərilmiş sənəddə büdcə kəsirinin 564 milyard dollar və ya ÜDM-in 3,1%-i həcmində ixtisar edilməsi nəzərdə tutulmuşdur. Sentyabrın 30-da başa çatacaq 2014-cü maliyyə ilində bu göstərici 649 milyard dollar və ya ÜDM-in 3,7%-i qədər olmalıdır.

B.Obama büdcəni şəhər məktəblərindən birində çıxış edərkən açıqlamışdır - bunun mənası belə izah olunur ki, büdcədə təhsil üçün xərclər artırılıb. Prezident diqqəti müxtəlif iqtisadi və infrastruktur layihələrinin maliyyələşdirilməsinə də yönəltmişdir - bu layihələr işsizliyi azaltmalı və əhalinin kasıb təbəqələrinin rifahını yüksəltməlidir. Qarşıya qoyulan məqsədə çatmaq üçün aşağı gəlirli uşaqsız ailələrə vergi güzəştləri proqramının genişləndirilməsi, eləcə də peşə və ya ali təhsili olmayan insanlara ixtisas hazırlığı əldə etmək üçün dövlət yardımının göstərilməsi önəmli yer tutur. «Hətta iqtisadi bərpa dövründə bir çox amerikalılar maddi rifahın hər hansı şəkildə yüksəldilməsini düşünmədən, sadəcə, öz yaşayışlarını təmin etmək üçün əvvəlkindən çox işləməlidirlər, - Barak Obama demişdir. - Xeyli sayda vətəndaş hələ də heç bir yerdə işləmir. Bizim vəzifəmiz bu arzuolunmaz halların qarşısını almaqdır».

Yoxsulluğun aradan qaldırılmasına və iqtisadi bərabərsizliyin azaldılmasına yönəldilən sosial yardım proqramı üçün vəsaitlərin axtarılması ölkənin ən varlı insanlarına qoyulmuş vergilərin artırılması, özəl investisiya fondları, eləcə də tütün məhsullarına tətbiq edilmiş aksiz vergilərinin artırılması və təyyarədə yüklərin daşınmasının təhlükəsizliyi üçün aviaşirkətlərdən tutulan vəsaitlər hesabına olacaq. Bununla aviabiletlərin qiymətləri də artacaq.

Oktyabrın 1-dən başlayacaq 2015-ci maliyyə ili büdcəsinin əsas parametrləri Ağ ev və Konqres ilə hələ bir neçə ay əvvəl razılaşdırılmışdı. Lakin gəlirlər və xərclər barədə sənəddəki konkret müddəalar ətrafında Obama administrasiyasını təmsil edən demokratlarla müxalif respublikaçılar arasında Senatda və Nümayəndələr Palatasında kəskin mübahisələr olacağı gözlənilir.



# İdxal edilən alkoqollu içkilər ölkə ərazisində markalanacaq

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun imzaladığı «Belarus Respublikasında alkoqollu içkilərin aksiz markaları ilə markalanmasına dair xüsusi məsələlər haqqında» sərəncama əsasən, kənardan idxal edilərək aksiz markaları ilə markalanmalı olan alkoqollu içkilərə aid gömrük əməliyyatları və ya gömrük nəzarəti həyata keçirildiyi halda, onlar aksiz markaları ilə ölkə sərhədlərindən kənarda və ya ölkə ərazisində Dövlət Gömrük Komitəsi tərəfindən təsdiq edilmiş gömrük anbarlarında markalanmalıdır.

Sərəncamda markalanması nəzərdə tutulan alkoqollu içkilərin aksiz markası vurulana qədər daşınması, yerinin dəyişdirilməsi və saxlanılması da nəzərdə tutulur. Prezident Administrasiyasının açıqlamasına görə, bu addımın atılması ölkənin nəqliyyat-logistika sisteminin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə xidmət edəcək.

Xarici ölkələrin təcrübəsi:

# Belçika Krallığının vergi sistemi

Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edir

**Əvvəli ötən sayımızda**

***Vergi dövrü:*** Qiymətləndirmə zamanı maliyyə ili ərzində əldə olunan gəlir əsas götürülür. Əgər maliyyə ili və təqvim ili üst-üstə düşürsə, qiymətləndirmə ili növbəti ildir. Məsələn, 2013-cü ildə əldə olunmuş mənfəət 2014-cü ildə qiymətləndirilir. Əgər maliyyə ili və təqvim ili üst-üstə düşmürsə, bu halda qiymətləndirmə ili maliyyə ilinin bitdiyi təqvim ilidir.

***Vergi bəyannamələrinin təqdim edilmə müddəti:*** Mənfəət vergisinin bəyannaməsi vergi orqanlarının qoyduğu son tarixədək təqdim edilməlidir. Bu, səhmdarların ümumi yığıncağında maliyyə bəyannamələrinin qəbul olunduğu tarixdən ən azı 1 ay, ən geci isə müəssisənin maliyyə ilinin bitdiyi tarixdən 6 ay keçdiyi müddətdir. Vergi orqanı öz mülahizəsinə əsasən müəyyən kateqoriyalı vergi ödəyicilərinə bəyannamə təqdim edilməsi üçün əlavə möhlət hüququ verə bilər.

***Verginin ödənilmə müddəti:*** Müəssisələr maliyyə ili ərzində öz mənfəət vergisi öhdəliyinin təxminən 1/4-i qədər avans ödənişləri etməlidirlər.

***Əlavə dəyər vergisi*** Belçika ərazisində ƏDV təqdim olunan mal və xidmətlərdən tutulan istehlak vergisidir. Ölkə qanunvericiliyinə əsasən, ƏDV ödəyiciləri aşağıdakılardır:

- Sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar (həm hüquqi şəxslər, həm də fərdi sahibkarlar);
- Avropa Birliyi (AB) daxilində əldəetmələri həyata keçirənlər;
- AB xaricindən idxal həyata keçirənlər.

İllik dövriyyəsi 5.580 avrodan az olan sahibkarlar (həm hüquqi şəxslər, həm də fərdi sahibkarlar) məcburi ƏDV ödəyicisi hesab olunmurlar, lakin bu şəxslər könüllü ƏDV məqsədləri üçün qeydiyyata dura bilərlər.

*Vergiyə cəlb olunan əməliyyatlar:* ƏDV-yə cəlb olunan əməliyyatlar aşağıdakılar hesab olunur:

- Sahibkarlar tərəfindən malların təqdim olunması (malların qeyri-sahibkarlıq məqsədilə istehsal hüdudlarından kənara çıxarılması da daxil olmaqla);
- Xidmətlərin təqdim edilməsi (sahibkarlar tərəfindən malların təqdim olunması hesab edilməyən digər əməliyyatlar);
- ƏDV ödəyicisi olan və ya olmayan hüquqi şəxslər tərəfindən Birlikdaxili əldəetmələr;
- İstənilən şəxs (ƏDV ödəyicisi olan və olmayan) tərəfindən mal idxalı;
- Rezident müəssisə tərəfindən qeyri-rezidentə elektron xidmətlərin (e-kommersiya) təqdim edilməsi;
- AB-dən kənar dövlətdən olmayan fərdi şəxs və ya sahibkara elektron xidmətlərin (e-kommersiya) təqdim edilməsi;
- AB üzvü olan digər dövlətdə təsis edilmiş sahibkar tərəfindən Belçikada təsis olunmuş sahibkar və ya sahibkar olmayan hüquqi şəxsə xidmətlərin təqdim edilməsi.

Səhiyyə, sosial, təhsil, mədəniyyət xidmətləri, hüquq mudafiəçilərinin xidmətləri, bank xidmətləri, faiz tutulmaları, sığorta xidmətləri, torpaq və digər daşınmaz əmlak satışı, əmgər AB ölkəsində təsis olunan sahibkar tərəfindən Belçikada istehlakçılara təqdim edilən xidmətlər təsis ölkəsində ƏDV-yə cəlb olunur.

Daimi nümayəndəlik və ya nümayəndə vasitəsilə Belçikada fəaliyyət göstərən qeyri-rezidentlər mal və xidmətlərin alışı və idxalı zamanı ödədikləri ƏDV-nin ümumi ƏDV öhdəliyindən artıq olmaması üçün əvəzləşdirilmə üzrə müraciət edə bilərlər.

AB-nin əlavə dəyər vergisi haqqında direktivlərinin tələblərinə əsasən, Birlik üzvü olan ölkələrin milli qanunvericiliyində ƏDV-nin standart dərəcəsi 15%-dən, azaldılmış dərəcəsi 5%-dən aşağı müəyyən edilə bilməz.

Belçikada müəssisələrin ödədikləri vergilərin strukturu




lak icarəsi ƏDV-dən azaddır.

ƏDV-nin standart dərəcəsi 21%-dir. Azaldılmış 12%-lik dərəcə kömür əsaslı yanacağa, restoran və iaşə xidmətlərinə (içkilər istisna olmaqla), rəqəmsal televiziya abunəsinə, bəzi sosial-məişət layihələrinə tətbiq edilir.

Daha da azaldılmış 6%-lik dərəcə ümumi ərzaq tədarükü, kitab və qəzet çapına, mehmanxana-otel xidmətlərinə, sərnişin nəqliyyatı, müəllif hüququ ilə bağlı olan royaltidən gəlir və onun təqdim edilməsinə (kompüter proqramları üzrə royalti istisna olmaqla), əczaçılıq məhsulları və suyun təqdim edilməsinə tətbiq olunur.

Sıfır dərəcə ilə ƏDV ixraca və ixrac xarakterli transaksiyalara, həmçinin AB ərazisindən kənarda olan alıcılara elektron xidmətlərin (e-ticarət) ixracına tətbiq edilir.

Belçika ərazisində daimi nümayəndəliyə malik qeyri-rezidentlər ƏDV məqsədləri üçün rezident ödəyici hesab olunur. Digər qeyri-rezidentlər, AB rezidentləri istisna olmaqla, Belçikada həyata keçirilən və ƏDV-yə cəlb olunan əməliyyatların aparılması üçün burada öz nümayəndəsini təyin etməlidir. Di-

***Fiziki şəxslərin gəlir vergisi:*** Rezidentlər bütün dünya üzrə əldə etdikləri gəlirlərdən, qeyri-rezidentlər isə Belçika mənbəyindən əldə etdikləri gəlirlərdən gəlir vergisini ödəməlidirlər. Rezident və qeyri-rezident fiziki şəxslər, həmçinin ortaqlıqlar gəlir vergisinin ödəyiciləri hesab olunurlar. Evli cütlüklər birgə ümumi vergi bəyannaməsi təqdim etsələr də, hər kəsin vergi tutulan gəlirləri ayrıca müəyyən edilir. Ər və ya arvadın hər birinin yekun gəliri onun qazandığı gəlir, qarışıq gəlirlərinin bəzi növləri (vaxtaşırı və ya təsadüfi gəlirlər), nikah mülkiyyəti haqqında qanun əsasında ona məxsus mülkiyyətdən gəlir növləri və tərəflərin hər ikisinin bütün digər gəlirlərinin yarısından ibarətdir.

Fiziki şəxsin əsas yaşayış yeri və ya iqtisadi maraqlarının mərkəzi Belçikadadırsa, o, rezident hesab edilir. Əgər fiziki şəxs vətəndaşlıq vəziyyəti aktları reyestrində qeydiyyatdadırsa, rezident hesab olunur (inkar edilə bilən ehtimal). Ailəli şəxslər Belçikada ailə qurduqları halda rezident hesab edilirlər (inkaredilməz ehtimal).

**Davamı növbəti sayımızda**

krossvord



**Yuxarıdan aşağı:** 1.Çində istehsal edilən avtomobil markası; 2.Şimali İtaliyada geniş yayılmış düyü xörəyi; 3.Amerikanın Texas ştatında şəhər; 4.Günəş sistemində 6-cı, böyüklüyünə görə isə Yupiterdən sonra ikinci planet; 6.İlkin ödəniş; 7.İkinəfərlik sportkar - idman avtomobili; 8.Siyasi quruluşa, siyasi partiya və hökumət əleyhinə bədii-publisistik nəşr; 13.ABŞ-da ştat; 14.Türk mifologiyasında mifik qəhrəman; 16.Atletizmdə uzun məsafəli, sərt əsaslı yollarda edilən müqavimət qaçışı; 17.Dünyada ən dərin göl; 19.Don və Dnepr çayları yaxınlığında XV əsrdən etibarən formalaşmağa başlamış xalq; 21.Sinir sisteminə aid olan mürəkkəb sözlərin başlanğıc hissəsi; 22.Ukraynanın tərkibində yarımada.

**Soldan sağa:** 1.İran ədəbiyyatının görkəmli simalarından biri. «Şahnamə» əsərinin müəllifi; 5.Şeir söyləyən və ya yazan şəxs; 9.Mineral; 10.Finlandiyaya aid muxtar vilayət *(ada)*; 11.Ən mühüm ünsiyyət vasitəsi olan dilin şifahi və yazılı təzahür forması; 12.Defisitin antonimi; 14.Partlayıcı maddə; 15.Azərbaycanın aparıcı şahmatçılarından biri, beynəlxalq dərəcəli qrossmeysterin adı; 18.Cənubi Asiyada dövlət; 20.Ölkəmizdə coğrafi bölgə; 23.Hərbi rütbə; 24.Antik dövrdə dram səhnələrində xor rəhbəri; 25.Azərbaycanlı aktrisanın təxəllüsü, bədii qiraət ustası kimi məşhurdur, bəzən çıxışlarını sazla özü müşayiət edir; 26.Qızılqazlar fəsiləsinə aid quş cinsi.

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Pompa; 2.Qayıbov *(İsmət)*; 3.Nias; 4.Niamey; 6.Oktod; 7.Bobsley; 8.Aqness; 13.Rəvayət; 14.Şivaizm; 16.Romario; 17.Vorsma; 19.Reata; 21.Rezus; 22.Arfa. **Soldan sağa:** 1.Paqanini *(Nikkolo)*; 5.Romb; 9.Meyxana; 10.Qütab; 11.ABBA; 12.Heyerdal *(Tur)*; 14.Şövkət *(Ələkbərova)*; 15.Astrey; 18.Variator; 20.Ömər *(Xəyyam)*; 23.İşarə; 24.Sürpriz; 25.Muar; 26.Paradoks.

Vergilər Nazirliyinin kollektivi
Şərur Rayon Vergilər Şöbəsinin rəisi, vergi xidməti müşaviri
**İsmayıl Fətullayevin**
vəfatından kədərləndiyini bildirir və
mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Vergilər Nazirliyinin kollektivi
Operativ nəzarət idarəsinin əməkdaşı
**Rafiq Məmmədovun**
vəfatından kədərləndiyini bildirir və
mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev *anar.eliyev@taxes.gov.az*

**Baş redaktor müavini:** Məti Osmanoğlu *redaksiya@vergiler.az*

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 14200**

## idman

# «Synergy Baku»nun Avropada möhtəşəm uğuru

*Azərbaycan Velosiped İdmanı Federasiyasının yaydığı xəbərə görə, Xorvatiyada keçirilən Beynəlxalq Velosipedçilər İttifaqının 1.2 kateqoriyalı birgünlük «Porec Trophy» yürüşü başa çatıb. Ümumilikdə 195 idmançının qatıldığı yarış Azərbaycanın «Synergy Baku» komandası üçün möhtəşəm nailiyyətlə yadda qalıb. Belə ki, 149 km məsafəyə mübarizədə «Synergy Baku»nun velosipedçisi Maksim Averin yeni komandasının heyətində debüt yürüşündəcə 3 saat 32 dəqiqə 22 saniyə nəticə göstərərək finişi birinci keçib və yarışın qalibi adını qazanıb.*

Qeyd edək ki, Maksim Averin bir zamanlar SSRİ-nin Olimpiya yığmasının şərəfini qoruyan, 1978-ci il dünya veloyürüşünün qalibi, SSRİ-nin əməkdar idman ustası, 1976-cı il Monreal Olimpiadasının iştirakçısı, 6 dəfə SSRİ çempionu həmvətənimiz Aleksandr Averinin oğludur. Hazırda Ukraynada yaşayan Aleksandr Averin 1954-cü il aprelin 11-də Bakıda anadan olub və velosiped idmanının sirlərinə də məhz burada yiyələnib. Onun oğlu, ötən il İsveçrənin «Atlas-Personal-Jakroo» Kontinental komandasının şərəfini qoruyan Maksim Averin isə bu ildən etibarən «Synergy Baku» komandasına qoşulub və iştirak etdiyi ilk yarışdaca ona göstərilən etimadı doğruldub.

Yarışdan sonra mətbuata açıqlamasında Maksim Averin sevincini gizlətməyib və belə bir mötəbər turnirdə qələbə qazandığı üçün qürur duyduğunu bildirib: «Öz tarixi vətənim olan Azərbaycanın «Synergy Baku» komandasının şərəfini qoruduğum üçün çox şadam. Mənə göstərilən etimada görə hamıya təşəkkür edirəm».

Qeyd edək ki, heyətə yeni üzvlərin cəlb olunması və federasiya tərəfindən onlara yaradılan yüksək şərait komandanı daha da gücləndirib. Xüsusən də heyətdə gənc azərbaycanlı idmançıların yer alması ölkəmizdə bu idman növünün inkişafına böyük ümidlər yaradır.




Yeri gəlmişkən, bu günlərdə başa çatmış «Tour de Langkawi»də də velosipedçilərimiz kifayət qədər uğurlu nəticələr göstərmişlər.

Həmin turnirdə ən yaxşı dağ velosipedçisi kimi birinci yeri tutaraq «qırmızı mayka» qazanmış komandamızın üzvü Metyu Bremmierin möhtəşəm çıxışı buna bariz misaldır.

Metyu Bremmierin bu uğurunda Azərbaycanın Elit yığmasının üzvü Elçin Əsədovun da böyük rolu var. Belə ki, yürüşün 8-ci mərhələsində kifayət qədər inamlı təsir bağışlayan Elçin sprintdəki uğurundan əlavə, dağ mərhələsində Bremmierə xeyli kömək edib və onu arxasınca aparmaqla həm özü 8 xal qazanıb, həm də komanda yoldaşının ən yaxın izləyiciləri ilə xal fərqinin azalmasına imkan verməyib.

Xatırladaq ki, «Synergy Baku»nun digər üzvü Maykl Şvayzer ilin ilk yarışı - Yeni Zelandiyada təşkil olunmuş «Cycle Classic» turunda ən yaxşı sprinter kimi «yaşıl mayka»ya layiq görülmüşdü.

# Güləş üzrə Azərbaycan çempionatı başa çatıb

*Martın 7-də «Sərhədçi» İdman Olimpiya Mərkəzində yeniyetmə və gənclər arasında sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatı başa çatmışdır.*




Turnirin proqramına əsasən, çempionatın sonuncu günündə sərbəst güləş üzrə 50, 55, 60, 66, 74, 84, 96 və 120 kiloqram çəki dərəcələrində 157 gənc pəhləvan mübarizə aparmışdır. Yarışda Arif Hüseynov (50 kq), Mircəlal Həsənzadə (55 kq), Vurğun Əliyev (60 kq), Murad Süleymanov (66 kq), Məhəmmədhacı Muxutov (74 kq), Nurməhəmməd Hacıyev (84 kq), Çermen Baqayev (96 kq) və Oyan Nəzərian (120 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxmışlar.

Hər çəki dərəcəsində mükafata layiq yerlər tutmuş idmançılar medal və diplomla yanaşı, Azərbaycan Güləş Federasiyası tərəfindən pul mükafatı ilə də təltif olunur və yığma komandanın heyətinə cəlb edilirlər.

# Tayvan turunda uğurlu start

**Azərbaycanın ilk peşəkar kontinental velosiped komandası «Synergy Baku»nun üzvləri Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.1 kateqoriyalı «Tayvan turu»nda mübarizəyə başlayıb. 5 günlük yürüşün 1-ci mərhələsində iştirakçılar paytaxt Taybey küçələri ilə 52 km məsafə qət ediblər.**

«Synergy Baku» üzvlərinin hamısı finişi liderlə eyni vaxtda keçsələr də, fotofinişə əsasən Kristof Şvayzer 10-cu, Azərbaycanın U-23 komandasının üzvü Samir Cəbrayılov 12-ci, Yan Sokol 13-cü, Elit yığmamızın şərəfini qoruyan Aqşin İsmayılov 28-ci, Markus Eybeger isə 45-ci olub.

Komanda üzvlərimizin bu nəticəsi «Synergy Baku»nun ümumi sıralanmada 20 kollektiv arasında 1-ci olmasına şərait yaradıb. 2-ci mərhələdə iştirakçılar 152 km məsafə qət edəcəklər.

## mozaika

sağlam həyat tərzi

# Çobanyastığı



Çobanyastığı güclü sakitləşdirici effektə malikdir, sinir sisteminə yaxşı təsir edir, yuxusuzluğu aradan qaldırır. Gərginlik və narahatlıq bəzən mədə-bağırsaq sisteminin xəstəlikləri ilə əlaqədar olur. Çobanyastığı çayı mədənin selikli qişasının iltihabını götürür və ağrıları azaldır, ona görə də mədə və onikibarmaq bağırsağın xoralarında tövsiyə edilir. Bağırsaq mikroflorasının pozulmasından əziyyət çəkənlər üçün də çobanyastığı çayı faydalıdır. O, həmçinin böyrək və öd kisəsi daşlarında əla profilaktik vasitədir. Çobanyastığını dəmləmək çox asandır. 2 çay qaşığı qurudulmuş çobanyastığını bir fincan suda dəmləyirik. Onu isti içmək lazımdır. Bəzən çobanyastığı çayına digər bitkilər də əlavə edirlər.

- Tərlədici, ağrıkəsici və mikrobəleyhinə vasitə kimi çobanyastığı çayı soyuqdəymələrdə faydalıdır. Ağzın və boğazın selikli qişasının iltihabında onu qarqara üçün istifadə edirlər.
- Göz infeksiyalarında çobanyastığı çayının paketindən istifadə edilir. Paket qaynar suya salındıqdan sonra gözün üzərinə qoyulur.
- Çobanyastığı dəmləməsi üz dərisinə xeyirlidir. Gündəlik səhər yeməyindən əvvəl 1 qaşıq balla çobanyastığı çayı içmək üzə sağlam və təravətli görünüş verir.

*Bunlara diqqətli olmaq zəruridir:*

*Çobanyastığı ən zərərsiz bitkilərdən biri sayılsa da, unutmayın ki, bu, bir dərman bitkisidir. Hamilə qadınlara çox miqdarda çobanyastığı çayı içmək məsləhət deyil. Onu sakitləşdirici dərmanlarla eyni vaxtda istifadə etmək də olmaz. Çobanyastığını aspirin və digər qandurulaşdırıcı vasitələrlə içməyin.*

internet

# «Skype» istifadəçiləri də «Facebook»a qoşulacaqlar

«WhatsApp» xeyli müddətdir ki, mobil operatorlar üçün arzuolunmaz bir rəqibə çevrilib. Yalnız internetə qoşulmaqla pulsuz mesaj göndərməyin mümkün olduğu halda heç kim mobil operatorların SMS xidmətindən istifadə etmir. Əvvəllər «hədəf» yalnız mobil operatorlar idisə, bu gün «WhatsApp»ın yeni sahibinin daha geniş məqsədləri olduğu aşkara çıxır. Bu proqramın nəzərdə tutulan mobil telefoniya xidmətləri əfsanəvi «inhisarçı» «Skype»ı da sıradan çıxaracaq. Bundan başqa, «WhatsApp» nəhəng Çin bazarına girmək niyyətindədir.

Bu yaxınlarda «WhatsApp»ın səsli danışıq xidməti «iOS» və «Android» sistemlərində işə düşəcək. «BlackBerry», «Windows Phone» və «Symbian» kimi əməliyyat sistemlərində isə bu xidmət bir qədər sonra təqdim olunacaq.

Şirkətin direktoru Yan Koum Barselonada keçirilən konqresdə çıxışı zamanı deyib ki, bu il ərzində «WhatsApp» İP telefoniya funksiyası ilə təmin olunacaq.

Bundan başqa, qeyd olunduğuna görə, «WhatsApp»ın əsas dəyərləri qorunub saxlanacaq: proqramda heç vaxt reklam olmayacaq.

Nəzərinizə çatdıraq ki, bütün dünyada mobil operatorlar 2013-cü il ərzində SMS xidmətlərindən 120 milyard dollar qazanıblar. «WhatsApp» olmasaydı, bu rəqəm 152,5 milyard təşkil edərdi. Proqram həmin qazancın daha çox olmasının qarşısını alsa da, Y.Koum mobil operatorları özlərinə rəqib deyil, partnyor hesab etdiklərini bildirib. Əlavə edib ki, 2015-ci ilə qədər istifadəçilərin sayını 1 milyarda çatdırmaq niyyətləri var.

texnologiya




# Robotlar küçə hərəkətini tənzimləyir

Konqo Demokratik Respublikasının paytaxtı Kinşasa şəhərində küçə hərəkətinin idarə edilməsi üçün nəzərdə tutulan iki insanabənzər robot quraşdırılmışdır. Bu robotlar avtomobil və piyadaların intensiv hərəkət etdiyi keçidlərdə quraşdırılmaqla işıqfor rolunu oynayırlar. Diod tablo şəklində hazırlanan işıqlar robotların kürəyində, sinəsi və əllərində yerləşdirilmişdir.

Bundan əlavə, hər robot dörd müşahidə kamerası ilə təchiz edilmişdir. Gələcəkdə robotların yol hərəkəti qaydalarının pozulmasını videoda qeydə alması və onları emal mərkəzlərinə göndərməsi də nəzərdə tutulur. Alüminiumdan hazırlanan robotlar əllərini yuxarı qaldırır və aşağı salır, eləcə də bədəninin yuxarı hissəsini döndərə bilir. Qurğuların hündürlüyü bərkidilmə altlığı nəzərə alınmadan 2,5 metrdir.

Robotlar Kinşasa Tətbiqi Texnologiyalar İnstitutunun mühəndisləri tərəfindən ərsəyə gətirilmişdir. Elektrik enerjisini günəş batareyalarından alan robotların hər birinin dəyəri təxminən 15 min dollardır.

# «Ağıllı bijuteriya»



Amerikanın «Cuff» şirkəti smartfona qoşula bilən bijuteriya xətti təqdim etmişdir. Xəttə doqquz əşya daxildir. Hər bir əşya «CuffLinc» adlı miniatür elektron qurğu ilə təchiz edilmişdir. Qurğu «Bluetooth» vasitəsilə «iPhone» və «iPad» ilə məlumat mübadiləsi edir. Gələcəkdə «CuffLinc» «Android» platformasını dəstəkləyəcəkdir.

Bijuteriya yaxın insanlarla təcili əlaqə vasitəsi kimi istifadə ediləcəkdir. Fövqəladə hadisə zamanı seçilmiş kontaktlara mesaj göndərmək üçün istifadəçiyə «CuffLinc» düyməsini sıxmaq təklif edilir.

Mesaj adresatların mobil telefonuna göndərilir. Mesaja göndərən şəxsin olduğu yer haqqında qeyd də əlavə ediləcəkdir. Qəbul edən şəxsdə «CuffLinc» cihazı varsa, qurğu titrəməyə başlayacaqdır.

«Ağıllı bijuteriya»nın kütləvi istehsalına 2014-cü ilin sonunda başlamaq planlaşdırılmışdır.

**Müdriklər deyib ki...**

*«Zaman – qabiliyyətlərin inkişaf etdirilməsi üçün bir meydandır...»*

*Karl Marks (1818-1883)*

